www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 noyabr 2015-ci il Çərşənbə axşamı № 244 (6272) Qiymətı 40 qəpik

**Xəbər**

## AŞPA monitorları: "Azərbaycanda seçkiləri azad saya bilmərik"

yazısı səh.2-də

**Gündəm**

### Qarabağa dair xalq diplomatiyası qayıdır - ilginc gəlişmə



Yeni təşəbbüsün arxasında məhz Amerikanın durması təsadüfi deyil; gündəmdən çıxmış və fiasko olmuş projeyə Qərb niyə "yeni nəfəs" və vəsait vermək istəyir?..

yazısı səh.9-da

### Bir neçə bankın bağlanması aktuallaşır...

yazısı səh.3-də

### Parlamentin 22 faizi yeniləndi

yazısı səh.5-də

*İlhamiyyə Rza:*

### "Cəmil müəllim, mənə mandat vəd etmişdiniz - nə oldu bəs?"

yazısı səh.10-da

### Azərbaycanda seçkisonrası səslərin sayılması niyə ləng aparılır...

yazısı səh.6-da

### Sənədsiz sürücüləri xəttə buraxan sahibkarları 8 ilədək həbs gözləyir

yazısı səh.14-də

### 224 nəfərin həlak olduğu təyyarə qəzasında terror izi...

yazısı səh.3-də

*Qabil Hüseynli:*

### "Qərbyönümlü siyasət uğur gətirmir"

yazısı səh.6-da

### "Əmir Qafqaz" qrupunun çeçen üzvü İstanbulda öldürüldü

yazısı səh.9-da

### Elşad Abdullayevin bacısı oğlu sərhəddə tutulmasından danışdı

yazısı səh.12-də

### Neft Fondunun valyuta ehtiyatlarını nə gözləyir...

yazısı səh.11-də

### Rəsmi Bakı Minsk Qrupundan imtina barədə düşünmür

yazısı səh.13-də

### Əfv məsələsi yenidən gündəmə gəldi

yazısı səh.3-də

## Eldar Mahmudovun çevrəsindən sensasion məlumatlar

# "MTN İŞİ"NDƏ YENİ GİZLİ HƏBSLƏR - ŞOK TƏFSİLAT

Sabiq nazirin "Akula Akif" kimi tanınan ən yaxın adamının Avropaya qaçdığı deyilir, onun evində hüquq-mühafizə orqanlarının əməkdaşları axtarış aparıb; Milli Təhlükəsizlik Nazirliyinin İstintaq İdarəsinin rəis müavini isə tutulub; təzə həbslər ictimaiyyətdən niyə gizlədilir?..




yazısı səh.7-də

# "AST Telman"ın "ürəyini" Ərdoğanın bankı əlindən aldı

"Halkbank" "Mardan Palace"yə cəmi 128 milyona sahibləndi; biznesmen hesab edirdi ki, onun aktivlərinin reyder üsulu ilə ələ keçirilməsi prosesi gedir...

yazısı səh.7-də



### Eldar Həsənov "Yeni Müsavat"a danışdı: "Mən heç bir yerə nazir gedəsi deyiləm"

yazısı səh.4-də



*Elxan Şahinoğlu:*

### "Ərdoğan Azərbaycana yeni siyahılar göndərəcək"

yazısı səh.8-də



*Bayram Səfərov:*

### "Qaçqın-yerli söhbəti eləmək lazım deyil"

yazısı səh.12-də



## Prezident ABŞ-la imzalanmış sazişi təsdiqlədi

**Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsini nəzərdə tutan sazişi təsdiq edib.**

"APA-Economics"in məlumatına görə, dövlət başçısı 2015-ci il sentyabrın 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə" sazişin təsdiq edilməsi barədə qanunu imzalayıb.

Qeyd edək ki, oktyabrın 20-də keçirilən Milli Məclisin IV çağırışda son plenar iclasında İclasda millət vəkilləri "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə" qanun qəbul edilib.

## ABŞ Rusiyadan sanksiyaların götürülmə tarixini açıqladı

**"Donbas xüsusi status almalıdır". Musavat.com-un məlumatına görə, bu barədə ABŞ-ın dövlət katibi Con Kerri Qazaxıstana səfəri çərçivəsində "Mir" telekanalına müsahibəsində deyib. Kerri həmçinin, deyib ki, "ağır hərbi texnika geri çəkilməli, beynəlxalq sərhədlər isə toxunulmaz qalmalıdır".**

"ATƏT situasiyanın monitorinqinə buraxılmalıdır. Beynəlxalq müşahidəçilər seçkiləri müşahidə eləməli, seçkilər isə Ukrayna qanunları əsasında keçirilməlidir" -Kerri qeyd edib.

Onun sözlərinə görə, nə vaxt ki, bütün bu şərtlər yerinə yetiriləcək, o zaman Rusiya üzərindən sanksiyalar götürüləcək və Moskva ilə Vaşinqton əvvəlki əlaqələrə qayıda biləcək. "Hansı əlaqələr ki, son illərin gərginliyini aradan qaldırmış olacaq" - əlavə edib ABŞ xarici siyasət idarəsinin başçısı.

## Goranboyda 23 yaşlı gənc qətlə yetirildi

**Goranboyda qətl hadisəsi törədilib. APA-nın qərb bürosunun verdiyi məlumata görə rayonun Nizami kənd sakini 1992-ci il təvəllüdlü Həsən Həsənov ürək nahiyəsindən bıçaqlanaraq Gəncə şəhər Təcili Tibbi Yardım xəstəxanasına yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq 23 yaşlı gəncin həyatını xilas etmək mümkün olmayıb. Məlumata görə onu Rəşad adında həmkəndlisi bıçaqlayıb.**

Faktla bağlı Goranboy rayon Prokurorluğunda cinayət işi başlanıb.

Araşdırma gedir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# AŞPA monitorları: "Azərbaycanda seçkiləri azad saya bilmərik"

**"Azərbaycanda keçirilmiş seçkiləri azad, ədalətli və demokratik seçkilərə doğru atılmış bir addım saya bilmərik". (BBC) Bunu Azərbaycanda noyabrın 1-də keçirilmiş parlament seçkilərini monitorinq etmiş Avropa Şurası Parlament Assambleyasının deputatları bildirib: "Bu seçkilərdə texniki və logistik nailiyyətləri qeyd etsək də, ölkədəki siyasi azadlıqlar, ifadə və media azadlığı, toplaşma və təşkilatlanma azadlığı sahələrində vəziyyət azad və demokratik seçkilərin keçirilməsinə şərait yaratmır".**




"Bu seçkilərə hazırlıq insan haqları sahəsində vəziyyətin pisləşməsi ilə keçib, halbuki insan haqları azad və ədalətli seçkilər üçün şərarit azad və demokratik seçkilər üçün önəmli ilkin şəraitdir", bəyanatda deyilir.

Avropa Şurasının Almaniyadan olan deputatı Frank Schwabe-nin ofisinin yaydığı bu bəyanatı onunla yanaşı Almaniyanın digər millət vəkili Ute Finckh-Kraemerv və İrlandiyadan Michael McNamara imzalayıblar.

Cənab Schwabe-nin ofisindən BBC Azərbaycancaya bildiriblər ki, AŞPA-nın birgə bəyanatını hazırlamaq "çox çətin" olduğundan və belə bir bəyanatın təcili verilməsinin əhəmiyyətini anlayaraq, Frank Schwabe seçkilərin obyektiv qiymətləndirməsini vermək üçün ayrıca bəyanat hazırlamağı qərara alıb.

"Jurnalistlərə və tənqidi fikirlər bildirən digərlərinə qarşı əsassız və ya selektiv cinayət təqibləri intensivləşib", bəyanatda bildirilir.

"Bu bəyanat AŞPA Seçki Müşahidəsi Missiyasının digər üzvlərinin imzalaması üçün açıqdır", bəyanatda deyilir.

Bu arada isə AŞPA-nın Azərbaycanda seçkiləri izləyən missiyası bəyanat verərək bildirib ki, missiya Seçki Məcəlləssinin sistematik və ya əhəmiyyətli pozulması barədə "hallara rast gəlməyib".

"Ancaq bir neçə səsvermə məntəqəsində cüzi hallarda bir neçə bülletenin qutuya birdən atılması müşahidə olunub. Missiya bunun üçün kimin məsuliyyət daşıdığını müəyyən edə bilməsə də, bu hala təəssüflənir və Mərkəzi Seçki Komissiyasını bu qanunsuzluğu araşdırmağa çağırır", deyə bəyanatda deyilir.

Missiya 28 üzvdən ibarət olub və ona İspaniyadan olan deputat Jordi Xucla rəhbərlik edib»-AŞPA bildirir.

Maraqlıdır ki, AŞPA-nın Azərbaycanda seçkiləri izləyən deputatları həmçinin "Azərbaycan xalqını seçkiqabağı kampaniya və seçki günü səsverməsinin əminamanlıq şəraitində keçməsilə bağlı təbrik edib".

"Hətta Avropa Şurası Parlament Assambleyası da Azərbaycanda keçirilən seçkilərə normal qiymət verdi". APA-nın məlumatına görə, bunu MSK-nın iclasında MSK sədri Məzahir Pənahov deyib.

M. Pənahov bildirib ki, müəyyən çatışmazlıqlar ola bilər və bu, istisna deyil: "Biz 15 ildir, müşahidəçilərə gördüklərini söyləməli olduqlarını deyirik. AŞPA çox ciddi qurumdur, müşahidə missiyasında təmsil olunan insanlar da özlərinə hörmət edən insanlardır. Ona görə də AŞPA müşahidə missiyasının seçkiyə verdiyi qiymət mühüm əhəmiyyət kəsb edir".



## Bakıda içkili sürücü polisi döydü

**Bakıda maşını içkili vəziyyətdə idarə etdiyi üçün saxlanılan sürücü polisi döyüb. Musavat.com xəbər verir ki, Xətai rayonu ərazisində Bakı sakini 1976-cı il təvəllüdlü İlqar Abbasovun idarə etdiyi "Audi" markalı 90 KM 796 dövlət nömrə nişanlı avtomobil Dövlət Yol Polisi əməkdaşları tərəfindən saxlanılıb.**

Polis əməkdaşları sürücünün sərxoş olduğunu müəyyən edib. Sürücü müayinə üçün Zığ yolu küçəsində yerləşən narkoloji dispanserə aparılıb.

Sərxoş sürücü müayinə zamanı Post Patrul Xidməti Bölüyünün serjantı Tariel Eyyubovu döyüb, ona yumruq zərbəsi endirib. Polis əməkdaşı xəsarət alıb.

Faktla bağlı Xətai Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

❑ İlkin MURADOV

## Taksilər üçün növbəti yenilik -Standartlar dəyişib

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi taksi avtomobilləri üçün standartları dəyişib. Qurumdan fins.az-a verilən məumata görə, taksi avtomobillərinin xarici tərtibatı ilə bağlı tələblər dəyişib.**

Beləliklə, yeni tələblərə görə, taksi avtomobilinin damında "Taksi" tanınma nişanı olan müvafiq fənər, hər iki tərəfdən qabaq və arxa qapılarının üzərində şahmat qaydasında düzülmüş, dördbucaqlardan ibarət kompozisiyalı fərqləndirici nişan olmalıdır.

Ən maraqlı dəyişiklik taksi avtomobillərin rəngi ilə bağlıdır. Belə ki, indiyədək qüvvədə olan tələblərə görə, Bakı şəhərində taksi avtomobillərinin rəngi bənövşəyi, Sumqayıt şəhərində ağ, Gəncə şəhərində boz, digər şəhər və rayonlarda bej, şəhərlərarası daşımalarda istifadə olunan taksi minik avtomobilləri isə albalı rəngdə olmalı idi. İndi isə bu tələblər ləğv edilib.

Taksilərin rəngi ilə bağlı tələblər yalnız hüquqi şəxslərin, habelə iki və daha artıq minik avtomobili ilə sərnişin daşımalarını həyata keçirən fiziki şəxslərin maşınlarına aid olacaq. Belə ki, belə avtomobillər sarı, ağ və ya bənövşəyi rəngdə olmalıdır. Qalan taksi avtomobilləri üçün rəng tələbi aradan qaldırılıb.

Yeni standarta əsasən taksilərin buraxılış ili ilə bağlı tələb də yüngülləşdirilib. Belə ki, 5 il əvvələ qəbul edilən standarta görə, Bakı şəhərindəki taksilər sırf taksi xidməti göstərmək üçün nəzərdə tutulan sərnişin tutumu 5 nəfər olan avtomobillər olmalı, həmçinin mühərriklərinin həcmi 2500 kub sm.dən az olmamalı və AVRO 3 və ya AVRO 4 standartlarına cavab verməli idi. İndi bu tələblər aradan qaldırılıb.

İndiki tələblərə görə, ölkədə taksi avtomobillərinin buraxılış ili 15 ildən artıq olmamalıdır.

Yeni standartda taksi avtomobillərinin iç tərtibatı da qeyd olunub. Taksi-minik avtomobilində isə sərnişin üçün ön oturacağın cihaz panelində yaxşı oxuna biləcək şəkildə sürücünün soyadı, adı, fotoşəkli və daşıyıcının (fiziki və ya hüquqi şəxsin) adı, ünvanı, telefon nömrəsi göstərilən məlumat lövhəsi olmalıdır. Taksi minik avtomobilləri taksometr aparatı ilə təchiz olunmalıdır. Yeni standarta əsasən taksilərdə GPS monitorinq mərkəzinin GPS aparatının quraşdırılması məcburi deyil.

## Bakı erməni̇si qadın mənzilini geri istəyir

**Saratovda yaşayan Bakı ermənisi qadın - Yelizaveta Gerasimovna Stepanyan "Yeni Müsavat" qəzetinin elektron poçt ünvanına məktub göndərərək vaxtilə Bakıda yaşadığı evin ona qaytarılmasına kömək edilməsini istəyir.**

Y.Stepanyan yazır: "Mən, nənələrim və valideynlərim, hamımız Bakıda doğulmuşuq və bu şəhərdə böyümüşük. Mən Bayıl qəsəbəsində, kərpic daxmada ərim və iki övladımla yaşayırdım. 1987-ci ildə biz Yeni Günəşli qəsəbəsində üçotaqlı mənzil aldıq. 1989-cu ildə erməni-azərbaycanlı münaqişəsi üzündən evimizi tərk etdik. Biz evimizi olduğu kimi qoyub qaçmalı olduq. Evdə olan hər şeyimiz, mebellər və digər əmlakımız qaldı. Mənzilin orderi əlimdədir. Biz gedəndən sonra, 13.01.90-cı ildə qonşularımız teleqram vurdular ki, mənzilin qapısını açıb giriblər, ancaq orda heç nə yoxdur. Mən Moskvaya DİN-ə, Kryuçkovun adına (burada Stepanyan yanılır, Kryuçkov SSRİ DTK-sının rəhbəri olub) teleqram göndərdim. Mənə Moskvadan və Bakıdan cavab gəldi ki, şəhərə gəlim və milislərlə birgə qonşuları gəzərək öz əmlakımı toplayım, ancaq mən Bakıya getməyə qorxdum. Sizdən xahiş edirəm ki, əgər mümkünsə evimin qaytarılmasına və ya Saratov şəhəri ilə dəyişdirilməsinə kömək edin. Yaxud da mənə yaxşı bir vəkil məsləhət görün".

Y.Stepanyan məktubunun sonunda telefon nömrəsi də göstərib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



**Əfv sərəncamının veriləcəyi barədə növbəti dəfə xəbərlər yayılıb. Daha öncədən 1 noyabr seçkilərindən sonra bir sıra siyasi məhbusların azadlığa buraxılacağı deyilirdi. 28 oktyabrda ABŞ Senatında Azərbaycan əleyhinə dinləmələrin keçirilməsi və ölkəmizdəki siyasi məhbuslarla bağlı hakimiyyətə çağırışlar edilməsi ümidləri artırır.**

# Əfv məsələsi yenidən gündəmə gəldi

## Hüquq müdafiəçiləri arasında ikitirəlik yaranıb; məhbus ailələri ümidsizdir

**Yayılan xəbərlərdə qarşıdan gələn 9 noyabr Dövlət Bayrağı Günündə, yaxud da Yeni il ərəfəsində əfv veriləcəyi deyilir.**

Hüquq müdafiəçiləri arasında bu məsələdə fikir ayrılığı yaranıb. Bir qisim əfv sərəncamının veriləcəyinə inansa da, digərləri bunun əksini düşünür.

"Yeni Müsavat"a açıqlamasında İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı ilin sonunda siyasi məhbusların bir qisminin azadlığa buraxılacağına ümid etdiyini bildirdi: "Sual o xəbəri yayanlara yönəlməlidir. Birinci dəfədir ki, müxtəlif beynəlxalq qurumlar Azərbaycanda insan hüquqlarının vəziyyətini müzakirə edirlər? O qədər bu problem müzakirə olunub ki, artıq adiləşib. Əfvi isə, ilin axırına gözləyirəm. Sadəcə düşünürəm və arzu edirəm".

**Siyasi məhbus ailələrinin də bu məsələyə mövqelərini aldıq.**

**REAL Hərəkatının sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova əfv xəbərləri ilə bağlı bunları dedi:** "Həmişə belə xəbərlər çıxır. Təki düz olsun. Neçə məhbus azadlığa buraxılsa, bu müsbət hal olacaq. Amma bu siyahıda kimin adının olacağını deyə bilmərəm".

**Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının ailəsi ümidsizdir.** Partiya liderinin həyat yoldaşı Həcər Pənahlı yayılan xəbərlərin doğruluğuna inanmadığını qeyd etdi: "Ümidimizi çoxdan itirmişik. Heç bir ümid, gözləntim yoxdur. Nemət həbs olunduğu gündən gəldiyim qənaət odur ki, onu günəgün saxlayacaqlar. Əfv olsa da inanmıram ki, Nemətə aid etsinlər".

**NİDA-çı gənc Rəşad Axundovun həyat yoldaşı Türkan Hüseynova** hər əlamətdar gündən öncə bu cür xəbərlərin yayıldığını söylədi: "Bu barədə heç bir fikir yürütmək istəmirəm. Əfv ola da bilər, olmaya da. Fikir bildirmək olduqca çətindir. Açığı heç bir gözləntim yoxdur".

**Digər NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov da ümidsiz danışdı:** "Ömərlə görüş günlərində görüşmək imkanımız olur. Bu barədə heç bir fikir bildirmir. Ümumiyyətlə, cəzaçəkmə müəssisəsində əfv söhbətləri getmir".

❑ **Cavanşir ABBASLI**

# Bir neçə bankın bağlanması yenə aktuallaşır...

## Beynəlxalq Bankda 25-30 faiz ixtisar olacaq, bankın yeni strukturu və ştat vahidləri artıq təsdiqlənib...

**Bir neçə gün əvvəl Beynəlxalq Bankda olacaq ixtisarlarla bağlı xəbər yenidən bank sistemindəki vəziyyətin ciddiliyini diqqətə çəkib. Beynəlxalq Bankda 25-30 faiz ixtisarların olacağı artıq rəsmi səviyyədə bildirilib. Beynəlxalq Bankdan isə "Yeni Müsavat" qəzetinin sorğusuna cavab olaraq bildirilib ki, bankın yeni strukturu və ştat vahidləri artıq təsdiqlənib. Beynəlxalq Bankın mətbuat katibi Yadigar Cəfərlinin sözlərinə görə, Azərbaycan Beynəlxalq Bankının həm strukturu, həm də ştat vahidləri indiki mərhələdə Bank qarşısında duran tələb və vəzifələrə uyğunlaşdırılıb:**

"Eyni zamanda, xərclərə mümkün qədər qənaət prinsipi də vacib amillərdən biri kimi nəzərə alınıb. Bu cür optimallaşdırma tədbirləri fəaliyyətin səmərəliliyinin, faydalı iş əmsalının artırılmasına, bankda korporativ idarəetmə sisteminin təkmilləşdirilməsinə xidmət göstərir. Bankda institusional inkişaf prosesləri davam etdirilir. Bu prosesdə strateji baxımdan perspektivli sayılan istiqamətlərə dəstək verildiyi kimi, az səmərəli sahələr üzrə adekvat tədbirlərin həyata keçirilməsi də istisna deyil".

**Qeyd edək ki, bir neçə gün əvvəl maliyyə naziri Samir Şərifov Beynəlxalq Bankda ciddi ixtisarların aparılacağını bildirib. Nazir qeyd edib ki, bu addım bankda qənaət rejiminin tətbiqi ilə bağlıdır:** "Bankın kollektivinin 25-30 faizi ixtisar olunacaq. Bu, qənaət rejiminin tətbiqi ilə bağlıdır". S.Şərifov bildirib ki, bankda korporativ idarəetmə da xeyli təkmilləşdiriləcək. Bundan başqa, nazir əlavə edib ki, sözügedən bankın sağlamlaşdırılması prosesi öz axarı ilə davam edir: "Bildiyiniz kimi, problemli aktivlər "Aqrarkredit" tərəfindən alınır. Bir sözlə, bankın sağlamlaşdırılması istiqamətində bütün zəruri tədbirlər görülür".

Xatırladaq ki, Azərbaycan Beynəlxalq Bankının Müşahidə Şurasının martın 18-də keçirilmiş iclasında Bankın İdarə Heyətinin sədri Cahangir Hacıyevin səhhəti ilə əlaqədar tutduğu vəzifəsindən azad edilməsi barəsində ərizəsi təmin edilib. Yay aylarında isə dövlət başçısı İlham Əliyev "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında fərman imzalayıb.

Qeyd edək ki, ölkənin ümumilikdə bank sistemində ciddi problemlər var. Bir müddətdir



davam edən problemlərin ekspertlər davamlı olacağını gözləyirlər. Ekspertlər bildirirlər ki, digər banklarda da ixtisarlar gözlənilir. Həmçinin ölkədə problemli kreditlərin həcmi artır və bu səbəbdən bank sistemi ciddi təhlükə qarşısındadır.

Ekspertlər tezliklə ölkədə bankların bağlanacağının anonsunu verirlər. **Ekspert Əkrəm Həsənovun sözlərinə görə, problemli kreditlərə görə birinci yerdə Beynəlxalq Bank gəlir:** "Söhbət bir neçə milyarddan gedir. Yəqin ki, yaxın aylarda dəqiq rəqəmi elan edərlər. İkinci yerdə "Paşa Bank"dır - 139 milyon. Üçüncü "Bank of Baku"dur - 83 milyon. Dördüncü VTB-dir (Azərbaycan) - 54 milyon. Beşinci "Bank Respublika"dır ki, 33 milyon problemli krediti var. Digərlərində bu rəqəm 30 milyondan azdır. Amma ümumən aktivləri də azdır. Buna görə də problemli kreditlərinin həcmi onlar üçün də dəhşətli səviyyədədir". Ekspert bildirib ki, istənilən halda, gələn il bankların azı 10-15-i mütləq bağlanacaq.

**Ekspertlər ciddi şəkildə bankların bağlanacağını proqnozlaşdırırlar. Həmçinin bildirilir ki, yaxın gələcəkdə bank sektorunda stressli vəziyyət davam edəcək, hətta artacaq, bəzi bankların bağlanması, ya da birləşdirilməsi prosesləri olacaq.**

❑ **RÖYA**

# 224 nəfərin həlak olduğu təyyarə qəzasında terror izi...

## Azərbaycan həmin xətt üzrə uçuşları dayandırıb



**Məlum olduğu kimi, Rusiyanın "Koqalımavia" şirkətinə məxsus təyyarə oktyabrın 31-də səhər erkən saatlarda qəzaya uğrayıb. 9268 reysi ilə uçan təyyarənin normal hava şəraitində havaya qalxdıqdan 23 dəqiqə sonra qəzaya uğrayıb və Sinay yarımadasındakı kimsəsiz bir yerdə - sahil şəhərləri Ariş və Hasna arasındakı əraziyə düşüb. Qəza zamanı təyyarədə olan 224 sərnişinin hamısının həlak olduğu bildirilir.**

Rəsmilərin verdiyi məlumata görə, 7 nəfərlik ekipajın idarə etdiyi təyyarədə 24-ü uşaq olmaqla 217 sərnişin ölüb.

Misir hökuməti 168 cəsədin tapıldığını, axtarış ərazisinin 15 kvadrat kilometrədək genişləndirildiyini bəyan edib.

**Rusiya prezidenti Vladimir Putin** noyabrın 1-də ölkədə matəm elan edib. İŞİD-in yerli qolu olan "Vilayət Sinay" Twitter və Telegram da daxil sosial mediada təyyarənin qruplaşma tərəfindən vurulduğunu iddia edib. Rusiya isə bu xəbəri dərhal təkzib edərək hadisənin baş verməsinin səbəbi kimi texniki nasazlıq yarandığı bildirib.

Rusiyada baş vermiş hadisədən sonra Azərbaycandan da həmin istiqamətə uçuşlar dayandırılıb. Bu barədə musavat.com-a AZAL-ın sabiq prezidenti, aviasiya mütəxəssisi Ədalət Əliyev məlumat verib. Onun sözlərinə görə, artıq Sinay yarımadası üzərindən uçuşlar dayandırılıb.

Yerli ekspertlər isə baş vermiş təyyarə qəzasını terror aktı kimi qiymətləndirib. **Hərbi ekspert Üzeyir Cəfərov** musavat.com-a açıqlamasında bildirib ki, təyyarənin vurulmasında məqsəd Rusiyadan heyif çıxmaqdır: "Bunun ciddiliyi şübhə doğurmamalıdır. Bu gün müasir silahlar var ki, həm mülki təyyarələrə, həm də hərbi təyyarələrə qarşı istifadə olunur. Təyyarəni İŞİD-in vurma ehtimalı böyükdür. Ona görə də, Rusiyanın siyasətində yumşalmağa doğru, sülhpərvərliyə doğru dəyişiklik olmasa bundan sonra Rusiyanın çox çətinlikləri olacaq. Rusiyanın son zamanlar apardığı siyasət, bu ölkənin özü üçün problemlər yaradır. Əgər yürütdüyü siyasətdə dönüş etməsə Rusiyanın problemləri artmaqda davam edəcək. Ukraynaya apardığı ədalətsiz müharibə, o cümlədən Dağlıq Qarabağla bağlı tutduğu haqsız mövqe, işğalçının yanında olması onu deməyə əsas verir ki, Rusiya belə gedişlə bir çox problemlərlə üzləşəcək. Son vaxtlar Suriya ilə bağlı atdığı addımlar, dünyada çox böyük qıcıq yaradır və bu da artan xətt üzrə gedəcək. Bütün bunlara baxmayaraq, Rusiya arxayındır. Mən hesab edirəm ki, Rusiyanın arxayınlaşması üçün heç bir əsas yoxdur. Bu gedişlə Rusiyaya qarşı terror aktları törədilə bilər. İstər siyasi, istərsə də iqtisadi sanksiyalar tətbiq edilə bilər. Bütün bunları istisna eləmək olmaz. Düşünürəm ki, Rusiya apardığı siyasətdə dəyişiklik etməlidir".

**Politoloq Elxan Şahinoğlu** da Rusiyanın İŞİD təhlükəsi ilə üz-üzə qaldığını bildirdi: "Misirdə Rusiya təyyarəsinin vurulmasını məsuliyyətini İŞİD öz boynuna götürdü. Müəyyən şübhələr yarandı ki, təyyarə vurulduqan sonra düşdüyü yer məhz İŞİD terror təşkilatının ərazisində olub. Lakin sonradan məlumat yayıldı ki, təyyarə texniki nasazlıq üzündən qəzaya uğrayıb. Başqa bir məsələ isə Rusiyanın İŞİD-ə qarşı düşmən mövqe sərgiləməsi göstərilir. Rusiyanın Suriyaya dəstək verməsi, Bəşər Əsədin İŞİD mövqeylərini bombalamasından sonra İŞİD- Rusiya savaşı başlanıb. İŞİD nəinki Rusiyanın hərbçilərini, o cümlədən mülki vətəndaşlarını da, hədəf götürə bilər. 2000-ci illərin əvvəllərində Amerika ilə Əl-Qaidə arasında savaşı yaxşı xatırlayırıq. Əl-Qaidə yalnız Amerika ordusuna qarşı pusqular həyata keçirmirdi. Mülki vətəndaşlarını da, qətlə yetirməyə çalışırdı. "11 sentyabr" hadisələrini buna misal göstərmək olar. Minlərlə Amerika vətəndaşı terrorun qurbanına çevrilə bilər. İndi də, İŞİD Rusiya üçün təhlükəyə çevrilə bilər. Xaricdə yaşayan Rusiya vətəndaşları İŞİD-in qurbanına çevrilə bilər. Ona görə Rusiya vətəndaşlarına xəbərdarlıq etməlidir. Necə ki, Amerika və yaxud İsrail vətəndaşlarını hər hansı ölkəyə gedəndə təhlükəsizlikləri nəzərə alır və bu barədə məlumat verir. Rusiya bu istiqamətdə fəallığını artırmalıdır. Hətta Rusiya təyyarəsi vurulmasa belə, vətəndaşlar İŞİD terrorçularının hədəfinə tuş gələ bilərlər".

❑ **Məğrur SALMANOV**

YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015



# Türkiyə niyə "AKP ilə yola davam" dedi?

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**Qardaş Türkiyə 1 noyabr sınağından çıxmağı bacardı. Əsas yekun budur ki, ölkə koalisiyon hökumət qurulması kimi neçə aydır daşıdığı ağır, az qala, dövlətin sütunlarını silkələyən problemdən qurtuldu. Xalq AKP-yə təzədən təkbaşına hökumət formalaşdırmaq mandatı verməklə bütün siyasi qüvvələri bu üzücü missiyadan azad elədi.**

Bu, ən əvvəl o anlama gəlir ki, Türkiyə cəmiyyəti olduqca həssas və mürəkkəb bir dönəmdən keçən dövlətin təcili şəkildə legitim hökumətlə təmin olunmasının zəruriliyinə dair verilən mesajları lazımınca qəbul edib və ciddiyə alıb.

Bu, həm də o deməkdir ki, 7 iyun parlament seçkilərindən sonra hakim partiyanın koalisiyalı hökumət qurulması yönündə apardığı siyasəti, sərgilədiyi mövqeyi toplum daha çox təqdir edir, nəinki koalisiya ortaqlığı təklif olunan digər siyasi qüvvələrin bu təkliflə bağlı nümayiş etdirdiyi yanaşmanı və olduqca həssas bir dönəmdə yaşanan mənasız siyasi didişmələri. Türkiyə siyasi didişmələrə "yox", APK ilə "Yola davam"a "hə" dedi.

Bunu iki seçkilərin nəticələrindən asanca görmək olar. Belə ki, 7 iyun Böyük Millət Məclisinə (TBMM) seçkilərdə AKP 40,87 % (258 yer), CHP 24,95 % (132 yer), MHP 16,29 % (80 yer), HDP 13,12 % (80) səs toplamışdısa, cəmi 5 ay sonra - 1 noyabrda qüvvələr nisbəti belə olub: AKP 49,6 % (317 yer), CHP 25,22 faiz (134 %), MHP 11,7 % (40 yer), Xalqların Demokratik Partiyası (HDP) 10,86 % (müstəqil deputatlarla birlikdə 59 yer).

Göründüyü kimi, yalnız CHP öz faizlərini qoruyub saxlaya bilib. MHP və HDP-də isə ciddi geriləmə var.

Nəticələr şəksiz ki, AKP iqtidarına, Ərdoğana növbəti böyük bir siyasi avans, "xeyir-dua"dır ki, ölkənin daxili və xarici siyasətinin hazırkı prioritetlərini, o sırada həmçinin, iqtisadi prioritetlərini saxlasın və inkişaf etdirsin, iqtisadi azadlıqları genişləndirsin, lirəni möhkəmlətsin. O sırada söhbət Suriya böhranı və Bəşər Əsəd, PKK və kürd açılımı, İŞİD terroru və Rusiya ilə münasibətlər sahəsində aparılan siyasi kursdan gedir. Türkiyə xalqı Ərdoğan iqtidarına bu məsələlərin hamısında daha qətiyyətli olmaq mandatı tanımış oldu.

Bura Türkiyənin Ermənistan və Qarabağ siyasəti də daxildir. Ermənilər çox ümidli idilər ki, təkrar seçkilərdə də PKK yönlü HDP öz səslərini qoruyub saxlayacaq, heç kimə yenə də birpartiyalı hökumət qurmaq mandatı verilməcəyək və o üzdən HDP ilə koalisiya məsələsi də aktuallığını saxlayacaq, PKK simpatizanları Türkiyənin qanunverici orqanında daha geniş əl-qol aça biləcəklər.

Müdrik Türkiyə seçicisi bu ümidləri də alt-üst elədi. Aydin oldu ki, rəsmi Ankaranın Qarabağ, erməni işğalı, saxta soyqırım məsələlərindəki prinsipial mövqeyi bundan sonra da dəyişməz olaraq qalacaq. Bu, 1 noyabr seçkilərinin nəticələrinin Azərbaycan üçün çox mühüm yekunlarından biri hesab edilə bilər.

Türkiyə elektoratı habelə, HDP-nin deputatlarının sayını 21 nəfər azaltmaqla ona üstəlik, öz yerini göstərdi. Bununla da sabitliyi, dincliyi, cəmiyyətin və dövlətin tamlığını hər şeydən üstün tutduğunu göstərdi, ölkənin ərazi bütövlüyü və suverenliyinə sədaqətini bir daha ortaya qoydu, terrora gizli-açıq dəstək verənlərin, separatçılığın, bölücülüyün yanında olmadığını nümayiş etdirdi.

*****

**1 noyabrda Azərbaycanda da parlament seçkiləri keçirildi. Necə keçirildi - artıq bütün dünyaya bəllidir. Əfsuslar olsun ki, "bir millətin ikini dövləti"ndə belə seçkilər Türkiyədən fərqli olaraq çoxdan ölkə ictimai-siyasi həyatı üçün heç bir dəyər kəsb eləmir. Çünki Azərbaycanı 23 ildir öz "dəyərləri" var...**

# Eldar Həsənov "Yeni Müsavat"a danışdı

## "Mən heç bir yerə nazir gedəsi deyiləm"

**Sabiq baş prokuror, Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənovun Azərbaycana qəfil gəlişi geniş müzakirələrə yol açıb, bununla bağlı xeyli versiyalar dövriyyəyə buraxılıb. Bəzi mətbuat orqanları səfirin gəlişini Vergilər Nazirliyində yüksək vəzigədə çalışan qardaşının ətrafında yaşanan narahatlıqlarla əlaqələndirib.**

İddia olunub ki, diplomat qardaşını təhlükələrdən qorumaq üçün Bakıya qəfil gəlib. Ancaq başqa versiyalar da var. Belə ki, E.Həsənovun MTN rəhbərliyinə gətirilməsi ideyasının olduğu da bildirilir. Bütün bu yazılanlarla əlaqədar diplomatın fikirlərini öyrənmək istədik. Məlum oldu ki, səfir artıq geri dönüb və iş başındadır.

***- Eldar müəllim, sizin Bakıya qəfil gəlişiniz ətrafında müzakirələr aparılır. Bu barədə yazılarda iddia olunur ki, qardaşınızı xilas etmək üçün ölkəyə təcili gəlmisiniz...***

- Əvvəla, onu deyim ki, mən xilaskar deyiləm. İkincisi də boş, mənasız cəfəngiyyatlara zaman ayırmağa mənim nə vaxtım, nə həvəsim, nə istəyim var. Çox təşəkkür edirəm ki, məni aramısınız, bu məsələ ilə bağlı mənə müraciət etmisiniz. Amma bir şeyi bilin ki, hər boş cəfəngiyyata ayrılan vaxta yazıqdır. Bu vaxtı faydalı işə sərf etmək olar. Bütün bunlar əhəmiyyətsiz məsələlərdir.

***- Təbii ki, bütün bunlar sıradan bir nəfərin barəsində yazılsaydı, əhəmiyyət verməmək, üstündən keçmək olardı. Sizinlə bağlı isə məlumatlar təkcə qardaşınızla bağlı deyil. Hətta sizin milli təhlükəsizlik naziri postuna təyin olunacağınız barədə də məlumatlar yayılıb...***



Eldar Həsənov

- Tam yanlış, boş, heç bir əsası olmayan məlumatlardır. Nəinki həqiqət olmayan, hətta həqiqətə yaxın gəlməyən məlumatlardır, şayiələrdir. Mən heç bir yerə nazir gedəsi deyiləm, belə bir məsələ də yoxdur. Tutduğum vəzifəmdən, taleyimdən də çox razıyam, işimdən də çox məmnunam.

***- Eldar müəllim, Sizin səfəriniz Monteneqronun baş nazirinin Bakı səfəri ilə eyni vaxta təsadüf etdi. Bu barədə nə deyə bilərsiniz?***

- Bu, bir protokol qaydadır ki, bir ölkəyə prezident, baş nazir gələndə səfir onları müşayiət etməlidir. Mən də Monteneqronun baş nazirini Bakı səfərində müşayiət etmişəm. Tədbir qurtarandan sonra da qayıdıb işimə, fəaliyyətimə başlamışam. Bundan başqa deyilənlər hamısı hekayədir, nağıldır.

***- Yazılanlara görə, sizin seçki ərəfəsinə Azərbaycana gəlməkdə bir məqsədiniz də olub: Kəlbəcər dairəsi üzrə seçkilərə qatılan Cavid Qurbanovla İsgəndər Həmidovu barışdırmaq istəyirmişsiniz. Bu barədə nə deyə bilərsiniz?***

- Harda barış varsa, orda varam. Əlbəttə, çox arzu edirəm ki, ölkəmizin hər bir guşəsində, hər bir cəmiyyətdə, hər bir qurumda barış olsun. Çünki uğurlar, gələcək barışdan, milli birlikdən keçir. Belə bir missiya üzərimə düşməyib. Belə bir məsələ olmayıb. Olsa belə, mən barışa tərəfdar olaram.

❑ Elşad PAŞASOY

# MTN-də yoxlamalar başlayıb

## Sabiq nazirin işdən çıxarılan ətrafı haqda ən son məlumatlar; Akif Çovdarovun idarəsində təftiş aparılır

**Eldar Mahmudov prezident sərəncamı ilə işdən çıxarıldıqdan sonra MTN-də ciddi yoxlamalar gedir. Az qala günaşırı bu nazirlikdən həbs, işdən çıxarılma xəbəri gəlir. MTN-də çalışaraq Eldar Mahmudovun komandasına daxil olan şəxslərin işdən çıxarılması, həbs olunması xəbəri gəlir.**




Redaksiyamıza daxil olan məlumata görə "MTN işi" üzrə istintaqa cəlb olunanlardan biri də nazirliyin İstintaq Baş İdarəsinin şöbə rəisi Təhsin Ağayevdir. T.Ağayev çalışdığı idarənin rəisi Mövlam Şıxəliyevin sağ əli hesab olunur. MTN-də sahibkarların qanunsuz həbsinə əsas yaradılması, heç bir cinayəti olmayan iş adamlarının əsassız olaraq istintaqa cəlb olunması T.Ağayevin vasitəsi ilə gerçəkləşməsi haqda faktlar toplanıb.

Qaynağımız deyib ki, MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsində də yoxlamalar başlayıb. Bu idarənin rəisi, general-mayor Akif Çovdarovun adı mətbuatda "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətl işi və jurnalist Aqil Xəlilin işində hallanıb. İdarədə oktyabrın 29-da başlanılan yoxlamaların nəticəsi olaraq A.Çovdarova tabe olan 3 şöbə rəisi Səlim Məmmədov, Akif Əliyev və Rəsul Rəsulov vəzifələrindən uzaqlaşdırılıblar. Bu şəxslər A.Çovdarovun "vuran əlləri" hesab olunurdu.

**Aldığımız məlumata görə, S.Məmmədov A.Çovdarovun himayəsi altında narkotik və insan alveri işlərində pul yığmaqla ad çıxarıb, R.Rəsulov haqq qoyan olub, A.Əliyev əvvəllər Çovdarovun köməkçisi olub, sonradan isə o da digər şöbələrin rəisləri kimi var-dövlət toplamaqla məşğul olmağa başlayıb.**

Digər bir məlumata görə, Eldar Mahmudovun kadrlarından hesab olunan Qədir Şirəliyev də tutduğu vəzifədən uzaqlaşdırılıb. "Dağlı Qədir" kimi tanınan Q.Şirəliyev sabiq nazirin yeganə kadrlarındandır ki, öz raportu əsasında işdən çıxarılıb. O, Akif Çovdarovun başçılıq etdiyi idarədə müavin olub. Çovdarovla münasibətləri gərgin notlara köklənib. A.Çovdarovun digər müavini Alı Nəbiyev də həmin idarədə rəisin müavini olub. A.Çovdarov adam döyəni kimi ad çıxarıb. MTN-dəki "təmizləmə"lərin Qorxmaz və Elxan adlı Baş İdarə rəisinin müavinlərinə çatdığı haqda da məlumat var. Bildirilir ki, Qorxmaz sabiq nazir Eldar Mahmudovun yaxın qohumudur. Görünən odur ki, istintaqçılar addımbaaddım sabiq nazirin ətrafına yaxınlaşır.

❑ E.HÜSEYNOV

DEMOKRATİK İSLAHATLAR
DEMOCRATIC REFORMS

# Demokratik İslahatlar seçki hesabatı yaydı

**Demokratik İslahatlar Partiyasının (DİP) Siyasi Şurası 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərlə bağlı hesabatını təqdim edib. Hesabatda bildirilir: "Demokratik İslahatlar Partiyası 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçkilərin ilkin mərhələsində 40 seçki dairəsi üzrə namizədlərini müəyyənləşdirib. Onların sənədləri qeydiyyat üçün müvafiq seçki komissiyalarına təqdim edilib.**

Onlardan cəmi 14 nəfər rəsmən qeydiyyata alınıb və seçki marafonuna qoşulub. Partiyanın namizədləri seçki kampaniyası dövründə hər hansı ciddi qanun pozuntusu ilə üzləşməyiblər. Onlara sərbəst şəkildə seçicilərlə görüşmək, öz təbliğatlarını aparmaq imkanları yaradılıb". Seçki günündə partiyanı MSK, DSK və MnSk-larda təmsil edən şəxslərin, partiyanın namizədlərinin, onların səlahiyyətli nümayəndə və vəkillərinin, müşahidəçilərin partiya mərkəzi qərargahına verdikləri məlumatlara əsasən DİP Siyasi Şurası qərara alıb:

**1.** Seçkilər Azərbaycan Respublikası Konstitusiyası və seçki qanunvericiliyin tələblərinə uyğun şəkildə keçirilib.

**2.** Seçkilərdə seçicilərin və namizədlərin iradəsinə təzyiq göstərmə halları qeydə alınmayıb.

**3.** Səslərin hesablanması zamanı bəzi çatışmazlıqlar müşahidə olunsa da, onlar yekun nəticəyə təsir etməyib.

**4.** Seçkilər müşahidəçilər və KİV üçün kifayət qədər açıq və şəffaf olub.

**5.** Özündən əvvəlki seçkilərlə müqayisədə, seçkilərin təşkili və keçirilməsi prosesində qismən irəliləyiş qeydə alınıb.

Seçkilər nəticəsində Demokratik İslahatlar Partiyasının sadəcə bir namizədi - 22 saylı Nəsimi İkinci seçki dairəsindən namizədliyi irəli sürülmüş Asim Nazim oğlu Mollazadə qalib gəlib. Digər namizədlər isə 2-ci və 3-cü yerlərdə qərarlaşıb.

**Partiya seçkilərlə bağlı beynəlxalq təşkilatların, xarici dövlətlərin müşahidə missiyalarının, həmçinin Avropa Şurası Parlament Assambleyasının Müşahidə Missiyasının seçkilərlə bağlı verdikləri hesabatla razıdır".**

❑ Vüqar MURAD

YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015

**Mərkəzi Seçki Komissiyası 1 noyabrda keçirilən seçkilərin nəticələrini rəsmən açıqladı. MSK sədri Məzahir Pənahov keçirdiyi mətbuat konfransında bildirdi ki, MSK-ya cəmi bir şikayət daxil olub və 3 gün ərzində bunlar araşdırılacaq. Əgər şikayətlər əsaslı olarsa, məntəqələrdə seçkinin nəticələri ləğv ediləcək: "Ləğv edilən seçki məntəqələrinin sayı kifayət qədər olduqda, seçki dairəsinin nəticələri ləğv olunacaq.**



# Parlamentin 22 faizi yeniləndi

## Deputatların maraqlı təsnifatı; yeni parlament üzvlərindən ilk açıqlamalar

**Ancaq bununla demək istəmirəm ki, belə hal gözlənilir. Biz aşağı seçki komissiyalarının fəaliyyətindən ümumilikdə razıyıq, əməyimizin nəticəsini görürük".**

MSK sədri qeyd etdi ki, Azərbaycan xalqı seçkilərdə kifayət qədər yetkinlik, müdriklik nümayiş etdirir, populist davranışları qəbul etmir: "Ona görə də Azərbaycanın gələcəyi üçün optimist olmamağa əsas yoxdur. Xalqın münasibəti bizim üçün ən ali qiymətdir, hər şeyin fövqündə dayanır. Azərbaycan xalqı keçirilən seçkilərdən razıdırsa, MSK məqsədinə çatmış hesab oluna bilər".

**Seçkinin müşahidəçiliyini həyata keçirən xarici müşahidə qruplarının isə demək olar ki, hamısı prosesin demokratik keçdiyini bəyan ediblər.**

Beləliklə, seçki yarışının lideri olan namizədlərdən 69-u Yeni Azərbaycan Partiyasının, 2-si Vətəndaş Həmrəyliyi Partiyasının nümayəndəsidir. Ümumilikdə digər 8 partiyadan da hərəsindən 1 nəfər olmaqla, 10 partiyanın nümayəndələri mandat əldə ediblər. Seçkilərdə mandat alan namizədlərin qalanları (44 nəfər) fərdi qayada bitərəf kimi irəli sürülmüş şəxslərdir.

Hazırda mövcud olan parlamentin deputatlarından 98 nəfəri 1 noyabrda keçirilən seçkilərdə mandatlarını saxlaya biliblər. 27 nəfər isə yeni şəxslərdir. Bu isə parlamentin 22 faiz yenilənməsi deməkdir. Mandat əldə edənlərdən 124-ü ali təhsilli, 1-i orta təhsillidir. 2010-cu ildə 20 nəfər, bu dəfə isə 21 nəfər qadın namizəd seçilib.

**Onu da qeyd edək ki, seçkinin yekun nəticələri MSK-da təsdiqləndikdən və sonra Konstitusiya Məhkəməsi tərəfindən təsdiqləndikdən sonra yeni parlament fəaliyyətə başlayacaq.**

125 qalib arasında ən cavan və ən yaşlı deputatın kim olduğuna gəlincə, Milli Məclisə seçilən ən cavan deputat hakim Yeni Azərbaycan Partiyasının (YAP) üzvü Şahin İsmayılovdur. 1986-cı il təvəllüdlü (29 yaş ) Şahin İsmayılov 81 saylı Beyləqan seçki dairəsinin seçicilərini növbəti 5 il müddətində parlamentdə təmsil edəcək.

Milli Məclisin ən qocaman deputatı isə xalq artisti, bitərəf Zeynəb Xanlarovadır. 1936-cı il təvəllüdlü (79 yaş) Zeynəb Xanlarova növbəti 5 il müddətinə 50 saylı Abşeron-Qobustan seçki dairəsindən deputat seçilib.

**Milli Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq, parlamentin ilk iclasını ən qocaman deputat açır, yeni seçilən deputatların siyahısını oxuyur və sədr seçilənədək birinci iclası aparır. Beləliklə, Zeynəb Xanlarova V çağırış Milli Məclisin ilk iclasına sədrlik etməlidir. Onun təklifi ilə Hesablayıcı Komissiya və bu barədə qərar qəbul edildikdən sonra sədr seçiləcək.**

Xatırladaq ki, 2005-ci ildə III çağırış Milli Məclisin ilk iclasını Murtuz Ələsgərov aparıb. 2010-cu ildə IV çağırış Milli Məclisin ilk iclasını ən yaşlı deputat Cəlal Əliyev açmalıydı, lakin o xəstə olduğundan parlamentə gəlməmişdi. Bu səbəbdən də IV çağırış Milli Məclisin ilk iclasını parlamentin digər yaşlı deputatı Fəttah Heydərov (1938-ci il təvəllüdlü) açmışdı.

Ehtimal edilir ki, Zeynəb Xanlarova bu dəfə də iclası açmaq səlahiyyətini Fəttah Heydərova güzəştə gedəcək. F.Heydərov Respublika Ağsaqqallar Şurasının sədridir.

Deputat seçilənlərdən 4 nəfəri isə universitet rektorlarıdırlar - Aqiyə Naxçıvanlı (Azərbaycan Müəllimlər İnstitutu), Səməd Seyidov (Azərbaycan Dillər Universiteti), Əhliman Əmiraslanov (Azərbaycan Tibbi Universiteti) və Ağacan Abiyevin (Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyası). Bu isə o deməkdir ki, Azərbaycanda 4 universitetin rektoru tezliklə dəyişəcək.

Bu ilin sentyabr ayında verilən qərara əsasən YAP-dan namizədliyi irəli sürülmüş rektorlar deputat seçilsələr, vəzifədən gedəcəklər. Adıçəkilən deputatlar YAP-ın siyahısında namizəd irəli sürülmüşdülər. YAP icra katibinin müavini Siyavuş Novruzov dünən mətbuata açıqlamasında bildirib ki, yuxarıda qeyd olunan namizəd rektorların ərizələrində də öz əksini tapıb.

Rektorlar hələ ki istefa verməyiblər. Onların seçkilərin nəticələri MSK və Konstitusiya Məhkəməsi tərəfindən təsdiqləndikdən sonra vəzifələrindən gedəcəyi gözlənilir.

Yeni seçilən deputatlardan Mətbuat Şurasının sədri Əflatun Amaşov deputat kimi atacağı addımları açıqlayıb. O qeyd edib ki, Mətbuat Şurasının sədri kimi mətbuatın problemləri onun üçün həmişə prioritet olub. Kütləvi İnformasiya Vasitələrinin maddi bazasının möhkəmləndirilməsi və digər məsələləri Milli Məclisin üzvü kimi, irəli sürəcək: "Əgər mən regiondan seçilmişəmsə, seçicilərimi də narahat edən məsələlər da qarşımda duran məsələlərdən olacaq.

Jurnalistlər tərəfindən Mətbuat Şurasının sədri seçilmişəm və yəqin ki, növbəti qurultaya kimi bu belə qalacaq".

87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən deputat seçilən Vəhdət Partiyasının sədri Tahir Kərimli isə "Yeni Müsavat"a açıqlamasında deputat seçilməsində zəhməti olan hər kəsə təşəkkür etdi və bildirdi ki, Konstitusiya Məhkəməsi nəticələri təsdiqlədikdən sonra deputatlıq fəaliyyətini necə quracağı barədə fikirlərini geniş şəkildə açıqlayacaq: "Seçicilərimə qaldıracağım məsələlərlə bağlı verdiyim vədləri yerinə yetirməyə çalışacağam. Parlamentdə insanların sosial problemlərini və Azərbaycanda sabitlik məsələlərini qaldıracam, təkliflərimi verəcəyəm.

Bununla yanaşı, fəaliyyət istiqamətlərimdən ən əsası Qarabağ problemi ilə bağlı olacaq. Qarabağ probleminin həllində irəliləyişə nail olunması və torpaqlarımızın azad edilməsi üçün təkliflər səsləndirəcəyəm. Xalqımıza dövlətə inam hissini aşılamağa çalışacağam".

### Müsavat seçkinin nəticələrini tanımadı

**Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahı isə seçkilərlə bağlı dünən böyük bir sənəd yayıb.** Sənədin sonunda bəyan edilir ki, Müsavat Partiyası antidemokratik şəraitdə, hakimiyyətin tam nəzarəti altında olan seçki komissiyaları tərəfindən, bərabər siyasi rəqabət və təbliğat imkanları prinsipini kobud surətdə pozmaqla, faktiki olaraq alternativsiz keçirilmiş, cəmiyyətin etimad göstərmədiyi 01 noyabr 2015-ci il tarixli seçkilərin nəticələrini tanımır. Partiya seçkilərin nəticələrinin ləğv edilməsini və Azərbaycan hakimiyyətindən təkrar seçkilərin keçirilməsini tələb edib.

**Müsavat Partiyasının başqanı Arif Hacılı isə parlament seçkilərinin nəticələri ilə bağlı mətbuat konfransı keçirib.** A.Hacılı parlament seçkisinin son 15 ildə ən uğursuz seçki olduğunu bildirib: "Seçki komissiyaları tamamən hakimiyyətin əlinin altındadır və ölkədə demokratik siyasi mühit mövcud deyil. Müsavat Partiyasının seçkilərə 73 namizədliyi irəli sürülsə də, yalnız 25-nin namizədliyi qeydə alınıb. Təbliğat-təşviqat proqramları zamanı da xeyli sayda qanun pozuntusu halı yaşanıb. Pulsuz efir vaxtı digər illərdən fərqli olaraq ümumiyyətlə verilmədi. Pullu efir vaxtı iaə əvvəlki vaxtlara nisbətən 10 dəfəyə kimi artıq idi. Müxalifətin də o məbləğləri ödəməyə maddi imkanı yol verməd iyi üçün efirə çıxmaq mümkünsüz idi. Bundan başqa, Müsavat Partiyasının nümayəndələri 100-dən çox seçki məntəqəsində olub və müşahidəçilərimiz seçkilərdə aktivliyin çox aşağı olduğunu bildirib. Ancaq hökumət bu faizi 55 olaraq qiymətləndirib. Bunun özü bir saxtakarlıqdır. Seçki günü məntəqələrin bir çoxunda karusel əməliyyatı müşahidə olunub və topa bülletenlərin atıldığına dair video faktlar da mətbuatda işıqlanıb. Bütün bu səbəblər nəzərə alınaraq Müsavat Partiyası seçkinin nəticələrini tanımır və hökumətdən dərhal nəticələrinin ləğv olunmasını tələb edir".

A.Hacılı Nida və REAL Vətəndaş Hərəkatları ilə birlikdə qısa zamanda birlikdə bəyanat verəcəklərini bildirib.

### Pənah Hüseyn və İqbal Ağazadə saxtakarlıq olduğunu bəyan etdi

AXP sədri, 63 saylı Sabirabad birinci seçki dairəsindən deputatlığa namizədliyini vermiş Pənah Hüseyn isə seçki ilə bağlı bəyanat yayıb. Bəyanatda seçkilərin anti-demokratik keçirildiyi bəyan edilir və pozuntu halları sadalanır. P.Hüseyn həmin pozuntu halları əsas göstərərək 63 saylı Sabirabad birinci seçki dairəsində 1 noyabr 2015-ci il tarixdə keçirilmiş seçkiləri baş tutmamış saydığını və həmin seçkilərin rəsmən elan edilmiş nəticələrini tanımadığını bəyan edib.

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə hazırda deputat mandatını daşıdığı 35 saylı Xətai Üçüncü Seçki Dairəsindən bu dəfə Araz Əlizadənin mandat əldə etməsi ilə bağlı fikirlərini modern.az-a bildirib.** "Bundan sonra siyasi fəaliyyətinizi necə davam etdirəcəksiniz?" sualına İ.Ağazadə belə cavab verib: "Siyasi fəaliyyətimizi deputatlığa görə davam etdirmirdik ki... Siyasi fəaliyyətimiz düzgün bildiyimiz kursdur. Siyasi partiyamızı da, ideyalarımızı da davam etdirəcəyik. Hər şey öz axarı ilə gedir. Dünyanın nə sonudur, nə də başlanğıcı. Ona görə də bu məsələdə heç nədən narahat deyilik. Sadəcə, dairənin elan etdiyi nəticələrin həqiqətə uyğun olmaması ilə bağlı lazım gələn prosedurları keçəcəyik.

Əvvəla, dairə üçün də, MSK üçün də çox çətindir. Möhürlənmiş bütün standartlara, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq 25 məntəqənin protokolu əlimdədir. Sadəcə olaraq indi yanlış bir nəticəni ortaya qoymaq və onu düzəltmək çox çətindir. Məsələn, orda qoyulan nəticələrdən biri məntəqələrin nəticələri idi. Əlimdə protokol var ki, 21-ci məntəqədən 44 səs almışam, Araz Əlizadə isə 8 səs. Amma MSK-nın saytında yerləşdirilmişdi ki, Araz Əlizadə 292 səs, mən isə 110 səs almışam. Bu protokollar əlimizdədir".

**İ.Ağazadənin deyib ki, indiyə qədər siyasi xətti nədirsə, o da davam edəcək:** "Nə düşüncəmizi, nə də düşərgəmizi dəyişmək fikrindəyik.

Hər şey yaxşı olacaq. Sadəcə, gülümsəmək lazımdır. Ən çətin anlarda da... Hesab edirəm ki, bu da bir siyasətçi üçün yaşaya biləcəyi situasiyalardan biridir. Fərqi yoxdur, haqlı və ya haqsız. Ona görə də yolumuza davam edirik. Gülümsəyə-gülümsəyə..."

**YAP İdarə Heyətinin üzvü, vitse-spiker Bahar Mradova** isə bildirib ki, seçki prosesində iştirak edən namizədlərin müxtəlif fikirləri olsa da, seçkinin ədalətli keçirilməsi göz önündədir: "Mən onların hər birinə ayrı-ayrılıqda şərh vermək istəmirəm. Ortada saxtakarlıq olması ilə bağlı iddialar araşdırmaq tələb edir. Müvafiq orqanlar müraciət olduğu təqdirdə, belə müraciətləri araşdırıb buna hüquqi qiymət verəcəklər. Hesab edirəm ki, İlyas İsmayılov və İqbal Ağazadə iddialarının prosedur qaydalarına uyğun şəkildə araşdırılmasına nail ola biləcəklər".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015



# Bir dürüst seçki...

Xalid KAZIMLI

**Başqa təsnifatlar boş şeydir, dünyada iki cür ölkə var: dürüst seçki keçirənlər və dürüst seçki keçirməyənlər. Dürüst seçki keçirənlərin içində sırf demokratik dövlətlər (Avropa ölkələri) də ola bilər, teokratik rejimlər (İran, Pakistan, Əfqanıstan) də, avtoritarizmə meyllənənlər (Türkiyə, Venesuela) də, konstitusiyalı monarxiyalar (İngiltərə, Yaponiya) da.**

Dürüst seçki keçirməyənlərin spektri isə daha rəngarəngdir. Bu sırada xuntalardan tutmuş plutokratiya rejimlərinə, klassik monarxiyalardan qatı diktaturalara, mafiya-dövlətlərə qədər hər rəngdə, hər sifətdə ölkə var.

Zatən, dünyadakı dövlətlərin üçdə ikisi dürüst seçki keçirməyən, seçkiyə ya az, ya da tam şəkildə hiylə qatanlardır.

Dürüst seçki keçirən ölkələrin içində kasıbları (Yunanıstan, Slovakiya, Makedoniya, Albaniya və s.) da var və onlar vəziyyətdən çıxmaq üçün hökumətlərini tez-tez dəyişirlər, çabalayırlar.

Dürüst seçki keçirməyən ölkələrin (Şimali Koreya, Kuba, Myanma, Zimbabve, Svazilend) içində də onlarca kasıbı var, ancaq onlar hakimiyyət dəyişmək imkanından məhrumdurlar və bataqlıqda olduqlarını bilərək çabalamırlar. Yarım əsr yaşı olan diktatura rejiminə malik olan ölkələr var.

Dürüst seçki keçirən ölkələrin əksəriyyəti firavan, inkişaf etmiş ölkələrdir, elmi-texniki tərəqqinin son nailiyyətlərindən yararlanaraq daha da irəli gedir, əhalinin rifahını təmin edirlər.

Dürüst seçki keçirməyən ölkələrin içində nadirən varlı ölkələr (Küveyt, Qətər, BƏƏ, Səudiyyə Ərəbistanı) də var, ancaq onları zənginliyi sırf hüdudsuz təbii resursların hesabınadır. Dünənə qədər o cür ölkələrdən biri də Liviya idi. Bu gün Liviya dünyanın ən binəsib ölkələrindən biridir.

Bir ölkədə dürüst seçki keçirilirsə, orda hər şey olur - haqq-ədalət də, azad iqtisadiyyat da, yüksək təhsil də, nümunəvi səhiyyə də, toxunulmazlıq da, işlək icra mexanizmləri də.

Dürüst seçki keçirilməyən ölkələrdə isə haqq-ədalətdən bir kəlmə belə söhbət gedə bilməz. Haqq-ədalət olmayan yerdə nə qanunun aliliyi, nə hüquqi sistem ola bilər. Hüquqla, qanunla idarə olunmayan dövlətlərdə adətən mafiya qayda-qanunları hökm sürür.

Mafioz rejimlərdə isə, bilindiyi kimi, azad iqtisadiyyat mövcud ola bilməz. Nə də elə ölkənin təhsilinin, səhiyyəsinin, başqa sektorlarının normal olması mümkün deyil.

Dürüst seçki keçirən və keçirməyən ölkələrə aid iki örnək var: Şimali Koreya və Cənubi Koreya. Koreya yarımadasının şimalında son yetmiş ildə bir dəfə də dürüst seçki keçirilməyib, Cənubi Koreyada isə bu illərdə 30-a yaxın təkcə parlament seçkisi keçirilib.

70 ildir ki, Şimali Koreyada hakimiyyətdə yalnız bir partiya və onun baba-oğul-nəvədən ibarət rəhbərləridir. Cənubi Koreyada isə 20-dən çox baş nazir və partiyalar hakimiyyətdə bir-birini əvəz edib.

Ortada olan mənzərə budur: Şimali Koreya dünyanın ən kasıb, səfalət içərisində olan 10 ölkəsindən biridir, Cənubi Koreya isə dünyanın ən güclü, ən yüksək rifahlı 20 ölkəsindən biridir.

Bu eyni millətin iki dövlətinin arasında bütün parametrlər üzrə ölçüyəgəlməz təzadlar olmasının yalnız bir əsas səbəbi var: seçki.

Vətəndaş müharibəsi nəticəsində ikiyə bölünmüş bu xalqın bir hissəsi sovet-rus təsiri altında olub, digəri Qərb-ABŞ himayəsinə sığınıb. Birincilər seçkilərini sovet-kommunist üsulu ilə keçiriblər, ikincilər isə demokratik əsaslarla, şəffaf, dürüst, əsl seçki necə olmalıdırsa, eləcə.

Bizim getdikcə Şimali Koreyaya oxşamağımız əbəs yerə deyil. Onlar da onillərlə gözlərini Moskvaya dikib ordan təlimat alıblar, biz də. Rusiyanın özündə belə dürüst seçki keçirilmirsə, onun vassallarında normal seçki olması absurddur.

Çox təəssüf ki, biz hər iki-üç ildən bir dürüst seçki keçirmək şansımızı qaçırırıq. Bu qədər təbii resurslara, zənginliklərə malik ola-ola, bir də dürüst seçki keçirsək, demokratik rejim, haqq-ədalət bərqərar etsək, son 10 ildə ölkəyə axan milyardlarla indi Avropanın əksər ölkələrini özümüzdən geridə qoya bilərdik.

**Fəqət biz nə milyardlardan yararlanıb ağ günə çıxa, nə də seçkilər yoluyla millətin potensialından istifadə edə bilmirik. Bu gedişlə axırda yenidən bir güclü yadeillinin əsiri olmasaq, yaxşıdır.**

# Müxalifət də Rusiyaya yaxınlaşa bilərmi?

## Qabil Hüseynli: "Qərbyönümlü siyasət uğur gətirmir"

**Son illərdə Azərbaycan hakimiyyəti ilə Rusiya arasında isti münasibətlər yaranıb. Xüsusilə, bu hal hər seçkiöncəsi daha çox yaşanır. Heç kəsə sirr deyil ki, seçkilər ərəfəsində ölkəmizdəki mühiti istənilən istiqamətdə dəyişməyə qadir olan yeganə dövlət şimal qonşumuzdur. Bütün bu proseslərin fonunda bir məsələ yenidən aktuallaşıb. Ölkə müxalifətinin illərdir yeritdiyi qərbmeylli siyasət yenidən gündəmə gəlib. Təsadüfi deyil ki, son 22 ildə demokratik düşərgə daha çox Qərbə meyl edib. Nəticəsi isə göz önündədir. Heç bir nəticə qazanılmadan günü-gündən müxalifət zəifləyir. Bəzi ekspertlər hesab edirlər ki, müxalifət xarici siyasətinə yenidən baxmalıdır. Son seçkilərdən sonra bu cür fikirlər daha çox səslənməyə başlayıb.**

**Politoloq Qabil Hüseynli** də indiyə qədər ölkə müxalifətinin daim qərbmeylli siyasət yeritdiyini təsdiqlədi: "Doğrudur, müxalifət Rusiyadakı siyasi qüvvələrlə münasibətə az diqqət yetirib. Rusiyadakı siyasi sistem, dəyərlər müxalifətin platformasına uyğun gəlmir. Bütün bunlara baxmayaraq, Rusiya yaxın qonşudur. Azərbaycanın taleyinə təsir edə biləcək bir ölkədir. Bu nöqteyi-nəzərdən müxalifət Rusiya ilə münasibətlərə diqqət yetirməlidir. Azərbaycanda kommunist partiyaları var. Bu partiyalar Rusiyadakı kommunist qurumları ilə daim əlaqə saxlayırlar. Onların münasibəti də çox vaxt böyük-kiçik qardaş üzərində qurulub. Azərbaycanın kommunist partiyaları sanki müstəqil siyasət yürütməkdən qorxaraq, Rusiyadakı kommunist partiyasının qanadı altına sığınmağa çalışırlar. Ölkəmizdə Rusiyadakı siyasi qurumlarla əlaqə saxlayan yeganə təşkilat Azərbaycan Kommunist Partiyasıdır. Bu partiya da iki qola ayrılıb. Aralarında ziddiyyətlər var. Rusiyada da sağçılar, solçular, milliyyətçilər, radikallar, mərkəzçilər var. Rusiyadakı mərkəzçilər və sağçılarla, ölkəmizdəki bu ideyanın daşıyıcıları arasında əlaqələr qurmaq lazımdır. Müxalifət özündəki bu nöqsanı aradan qaldırsa, mənə elə gəlir ki, siyasətdəki uğurları arta bilər".



Q.Hüseynli müxalifətin Rusiyanın ölkəmizdəki təsir imkanlarını bilə-bilə bu ölkə ilə əməkdaşlığa üstünlük verməməsinin səbəblərini də açıqladı: "Müxalifətin sıralarında ehkamçılıq var. Ölkəmizə təsir imkanları nəzərə alınaraq, Rusiya ilə əlaqələr yaradılmalıdır. Birtərəfli qaydada qərbyönümlü siyasət uğur gətirmir. Siyasəti bir qədər tarazlaşdırmağa, digər qolları üzrə düşünməyə ehtiyac yaranır. Hesab edirəm ki, bu gün müxalifət üçün qərbyönümlü siyasət əsas olsa da, hadasa rusiyayönümlü siyasətə də diqqət yetirilməlidir. Bu ölkədəki siyasi qüvvələrdə əlaqələr yaradılmasına çalışılmalıdır. Sözsüz ki hər iki ölkənin siyasi qüvvələrinin əlaqələrinə mane olan amillər var. Dəyərlərdə, dəyərlər sisteminə münasibətdə fərqlər var. Bütün bunlara baxmayaraq, Rusiyada bütün siyasi qüvvələr belə deyil. Nemstovun başçılıq etdiyi partiya demokratik meylli idi. Orada da özünə mütəffiq tapmaq mümkündür. Hətta Rusiyanın hakim partiyası ilə belə, prinsipal yox, müəyyən məsələlərdə əlaqələr yaratmaq mümkündür".

**Politoloq yaxın gələcək üçün Azərbaycandakı rusiyameylli siyasi qüvvələrin güclənmə ehtimallarından da söz açdı:** "Ölkəmizdə rusiyameylli qurumlar içərisində əsas yeri kommunist partiyaları tutur. Bu qurumlar da bir-birləri ilə didişirlər. Əhali arasında öz ideyalarını yaymaq uğrunda işlər görmürlər. İlk növbədə, onlar cəmiyyətdə özlərini təsdiq etməlidirlər. Sosial baza qazanmaları lazımdır. Bundan sonra Rusiyadakı siyasi qüvvələrlə əlaqə yaratmalıdırlar. Azərbaycandakı sosialyönlü partiyaların Rusiyadakı bu tipli qurumlarla bərabərhüquqlu əməkdaşlıq edəcəyinə inanmıram. Hazırda Rusiyada kommunist partiyasının özü millətçi partiya sayılır. Millətçi dəyərlərə daha çox üstünlük verirlər. Putin hakimiyyətinin siyasətini müdafiə edirlər. Mövqeləri hakim partiyanın mövqeləri ilə fərqlənmir. Azərbaycanda da bu tipli qurumların platformalarında kommunist dəyərləri özünə yer tapmır. Reallıq budur ki, bu qurumlar hazırda xalqın içərilərinə gedib, ideya, məqsədlərini yaya bilmirlər".

❑ Cavanşir ABBASLI

# Azərbaycanda seçkisonrası səslərin sayılması niyə ləng aparılır?

## Akif Qurbanov: "Bu, ən əvvəl seçkiyə etimadla bağlı məsələdir..."

**Seçki prosesinin əsas məqamlarından biri də səsvermə üçün təyin olunan vaxt başa çatdıqdan sonra verilən səslərin operativ hesablanması və ilkin nəticələri maksimum qısa zamanda ictimaiyyətə çatdırılmasıdır.**



Seçki Məcəlləsinə əsasən, səslərin hesablanması prosesində iştirakla bağlı bütün maraqlı tərəflər üçün şərait yaradılmalıdır. Məntəqənin komissiya üzvləri tərəfindən sayılan səsləri, müşahidəçilərin də kənardan izləmək hüququ var. Lakin Azərbaycanda seçkilərdən sonra səslərin hesablanma prosesi bəzən hətta növbəti günə qədər uzanır. Ötən bazar keçirilən parlament seçkiləri də sübut etdi ki, Azərbaycanda seçkisonrası səslərin sayılma mərhələsi xeyli zaman alır.

Bəs bunun səbəbi nədir, dünya təcrübəsində bu proses necədir? Səslərin hesablanmasını sürətləndirən hər hansı mexanizm mövcuddurmu?

Məsələ ilə bağlı "Yeni müsavat"a açıqlamasında **Mərkəzi Seçki Komissiyasının üzvü Akif Qurbanov** bildirib ki, bəzi dünya ölkələrində səslərin sayılmasında daha müasir metoddan istifadə olunur: "Praktik olaraq biz seçki dövründə şahidi oluruq ki, əslində səslərin operativ qaydada sayılması mümkündür. Lakin hansısa bir süründürməçiliklə bağlı cəhdlər varsa, o zaman səslər vaxtında sayılmır, nəticələr də elan edilmir. Amerikada iştirak etdiyim seçkilər zamanı şahidi oldum ki, səslərin sayılması xüsusi aparat vasitəsi ilə həyata keçirilir. Bülletenlər aparata daxil edilir və onu "scan" edərək avtomatik sayır. Bunun nəticəsində nəticələri şəffaf şəkildə izləmək mümkün olur. Eyni zamanda bu, elə bir proqramdır ki, sayım prosesinə müdaxilə etmək də mümkün deyil. Postsovet məkanında isə sonuncu Qırğızıstan seçkilərində də bu mövzuda yeniliklər edilib. Artıq orada bülletenlərin qutulara daxil edilməsi zamanı quraşdırılan cihaz onların sayını da hesablaya bilir. Səsvermə başa çatan kimi isə həmin proqramlaşdırılmış sistem nəticələri hesablayıb elan etmək funksiyasına malikdir. Göründüyü kimi, dünya ölkələrində bu kimi asan və müasir üsullardan istifadə edilməkdədir".

**Ekspert bildirib ki, bu prosesin necə həyata keçirilməsi məsələsi əslində təkcə vaxt və çevikliyə əsaslanmır:** "Önəmli olan məsələnin ictimai etimadının olmasıdır ki, səsvermənin sayılmasını kimlər həyata keçirirlər və həmin şəxslərə və qurumlara qarşı cəmiyyətdə ictimai etimad nədən ibarətdir? Yəni cəmiyyət inanırmı ki, həmin qurumların saydıqları səs obyektiv olacaq? Misal üçün Fransada seçkiləri Daxili İşlər Nazirliyi keçirir. O ölkədə heç kim düşünmür ki, bu qurumun keçirdiyi seçkidə hər hansı saxtakarlıq olsun. Azərbaycanda isə bu belə deyil. Onu da qeyd edim ki, səslərin müasir üsullarla hesablanması zamanı bülletenlərdə heç bir dəyişiklik aparılmır. Sadəcə olaraq, mövcud müasir sistem elə qurulur ki, müvafiq aparatın köməkliyi ilə bülletenlər operativ qaydada yoxlanıla bilir".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015

# Eldar Mahmudovun çevrəsindən sensasion məlumatlar




# "MTN işi"ndə yeni gizli kütləvi həbslər - şok təfsilat

**Sabiq nazirin "Akula Akif" kimi tanınan ən yaxın adamının Avropaya qaçdığı deyilir, onun evində hüquq-mühafizə orqanlarının əməkdaşları axtarış aparıb; Milli Təhlükəsizlik Nazirliyinin İstintaq İdarəsinin rəis müavini isə tutulub; yeni həbslər ictimaiyyətdən niyə gizlədilir?..**

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun işdən çıxarılmasından sonra onun yaxın çevrəsində də "ələmə" aparılır. Sabiq nazirlə yaxınlığı olan, onun əmrində çalışmış az qala hər kəs indi istintaq altındadır. İndiyədək MTN-nin 10-a yaxın general və zabiti - idarə rəisləri, onların müavinləri, digər vəzifəli şəxslər həbs edilib, bəziləri işdən çıxarılıb.**

Noyabrın 1-də MTN-in daha bir yüksək vəzifəli zabitinin həbsi xəbəri yayılıb. Nazirliyin İstintaq İdarəsinin rəis müavini Vüsal Ələkbər haqda məhkəmənin hökmü ilə 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Baş Prokurorluq bundan öncə 7 MTN zabitinin həbsi haqda rəsmi məlumat yaymışdı. Vüsal Ələkbərun hansı maddələrlə, nəyə görə həbs edildiyi barədə hələlik rəsmi bilgi yoxdur.

"Yeni Müsavat"a daxil olan digər xəbərdə isə bildirilir ki, Eldar Mahmudova yaxın şəxslərdən biri Avropaya qaçıb. Sabiq nazirin çevrəsində olan, iş adamı kimi tanınan "Akula" ləqəbli Akif Mustafayevin Azərbaycanı tərk etdiyi deyilir. Bildirilir ki, o, oktyabrın 18-də - Eldar Mahmudov nazir vəzifəsindən çıxarıldıqdan 1 gün sonra təyyarə ilə Bakıdan Parisə uçub. A.Mustafayevin oradan da İspaniyaya getdiyi deyilir. A.Mustafayevi tanıyan və onunla birlikdə təyyarədə uçan sərnişinlərdən birinin redaksiyamıza verdiyi məlumata görə, "Akula Akif" Paris hava limanına çatana kimi hava gəmisinin biznes-klass bölümündəki yerində spirtli içki qəbul edib. Sərnişinin dediyinə görə, A.Mustafayev həddən artıq dilxor görünürmüş.

**Akif Mustafayevi tanıyanların sözlərinə görə, o, ayrı-ayrı iş adamları haqda MTN rəhbərliyinə lazımi bilgilər verib, onları ilişdirirmiş.** Sonradan həmin iş adamlarına öz "köməyini" təklif edirmiş. MTN zabitləri ilə iş adamlarının arasında vasitəçilik görüntüsü yaradıb, külli miqdarda pul alırmış. O da bildirilir ki, "Akula Akif" bu "xidmətlərindən" sonra MTN-in "əlindən qurtardığı" iş adamlarının biznesinə 20-30 faiz ortaq olurmuş. Onlara "krışalıq" edirmiş.

Noyabrın 1-də hüquq-mühafizə orqanları əməkdaşları Akif Mustafayevin Bakıdakı evində axtarış aparıb. Hadisənin şahidi olan qonşuların verdiyi məlumata görə, onun evindən xeyli daş-qaş, qızıl zinət əşyaları və külli miqdarda pul götürülərək müsadirə edilib.

**Bizə verilən məlumatda o da deyilir ki, "Akula Akif" əsasən MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Füzuli Əliyev və nazirliyin yüksək rütbəli zabiti Elşad Mahmudovla "işləyirmiş". O, həbs olunacağından qorxduğu üçün nazir vəzifədən çıxarıldıqdan dərhal sonra Azərbaycandan qaçıb.**

Son günlər "MTN işi"nə görə kütləvi həbslər olduğu haqda redaksiyamıza məlumatlar daxil olur. Hələlik onları tam dəqiqləşdirə bilməmişik. Həmçinin hüquq-mühafizə orqanları yeni tutqular barədə ictimaiyyətə bilgi vermir. Lakin bəzi mənbələrdən "Yeni Müsavat"a daxil olan özəl xəbərlərdə deyilir ki, bu işə görə xeyli həbs olunanlar var. Tutulanlardan bəzilərinin adları bizə məlumdur, sadəcə bəzi dəqiqləşdirmə apardıqdan sonra onların ad-soyadlarını açıqlayacağıq.

Bəzi ekspertlərə görə, həbslərlə bağlı yaxın günlərdə rəsmi məlumat yayılacaq. Çünki bu qədər adamın tutulmasını uzun müddət gizlətmək mümkün deyil. Sadəcə ola bilər ki, seçki dövrünə düşdüyü üçün bu həbslər ictimailəşdirilmir.

**O da bildirilir ki, həbslər təkcə MTN-in işçiləri ilə yekunlaşmır - iş adamlarından, başqa nazirlik və komitələrin məsul əməkdaşlarından da tutulan, işdən çıxarılan və istintaqa cəlb olunanlar var.**

❑ **Aslan ARAZ**

# "AST Telman"ın "ürəyini" Ərdoğanın bankı əlindən aldı

**"Halk bank" "Mardan Palace"yə cəmi 128 milyona sahibləndi; biznesmen hesab edirdi ki, onun aktivlərinin reyder üsulu ilə ələ keçirilməsi prosesi gedir...**

**Neçə müddətdir ciddi maliyyə sıxıntısı yaşayan "AST" Şirkətlər Qrupunun prezidenti Telman İsmayılov "ürəyindən vurulub". Onun 2009-cu ilin mayında açılışını etdiyi, atasının adının daşıyan "Mardan Palace" hoteli əlindən çıxıb 1.4 milyard dollar başa gələn hotel cəmi 128 milyon dollara satılıb.**

Türkiyənin "Hürriyet" qəzeti noyabrın 2-də Antalya İcra dairəsinin "Garanti bank"ın iddiası əsasında həbs qoyduğu hotelin satışa çıxarılaraq cəmi 360 milyon türk lirəsinə satıldığını xəbər verib. Təxminən 128 milyon dollara satılan hoteli "Halk Bank" alıb. "Garanti Bank"ın Telman İsmayılovdan 207 milyon TL borcunu tələb etdiyindən hələ görünür ki, borc tam ödənilməyib. Məlumata görə, hotelin yanında T.İsmayılov dəbdəbəli villa tikdirib və güman ki, o villada satışa çıxarılacaq. T.İsmayılovun "Halk bank"a da borcu olduğundan bu bank qalan vəsaiti ödəməyəcək və onu borca siləcək.

**"Halk Bank" Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bankı hesab olunur.** Ərdoğan ailəsi ilə bağlı məlum rüşvət qalmaqlında da bu bankın adı tez-tez hallanırdı və müəyyən müddət hətta qapadılmışdı da. 7 ulduzlu dəbdəbəli oteli dəyərindən 10 dəfə aşağı qiymətə alınması bəzi şübhələrə yol aça bilər. Çünki hələ bir müddət əvvəl T.İsmayılov demişdi ki, onu Türkiyədə çıxarmaq istəyən maraqlı qüvvələr var. O, bu hoteli satmaq planlarının olmadığını da demişdi. T.İsmayılov hotelin inşası zamanı bank kreditlərindən istifadə etdiyinin təsdiqləmişdi: "Söhbət yalnız 110 milyon dollardan gedir. Mənim Türkiyədə heç bir problemim yoxdur".



Biznesmen hesab edirdi ki, onun aktivlərinin reyder üsulu ilə ələ keçirilməsi prosesi gedir.

Noyabrın 2-də məlum olub ki, Moskva Arbitraj Məhkəməsi də Telman İsmayılovun müflis elan edilməsinə dair kreditorlar tərəfindən qaldırılmış iddianı baxılmaq üçün qəbul edib və prosesin vaxtını açıqlayıb.(virtualaz.org). T.İsmayılovun fərdi şəxs olaraq müflis elan edilməsi barədə iddianı "Bank Moskva" (VTB qrupuna daxildir) qaldırıb. Biznesmen bankdan götürdüyü 213 milyon dollar krediti qaytara bilmir. Arbitraj Məhkəməsi oktyabrın 6-da bu vəsaitin T.İsmayılova məxsus "KBF AST" şirkətindən tutulmasına dair qərar çıxarıb. Digər çoxsaylı kreditorlar da T.İsmayılovdan borclarını tələb edir. Bunların arasında ən sərt metodlar tətbiq edəni oliqarx Sergey Yançukovdur.

**T.İsmayılov S.Yançukovun "Maqnazeya" şirkətlər qrupuna daxil olan "Sezaria LTD" şirkətindən 2010-cu ildə 100 milyon dollar borc alıb, bu borc şişərək faizləri ilə birlikdə 140 milyon dollara çatıb.**

Müflisləşmiş oliqarx biznesin müxtəlif sahələri - hotel, zərgərlik, tikinti ilə məşğul olsa da, onun əsas gəlir mənbəyi "Çerkizovsk" bazarı olub. Uzun illər "AST" qrupu 200 hektardan çox ərazisi olan nəhəng bazara nəzarət edib. Kremlə hələ də səbəbləri tam bilinməyən səbəbdən problemi yarandıqdan sonra "Çerkizovsk" bazarı dayandırıdı. Bazarın bağlanmasından sonra "AST Telman" Antalyada "Mardan Palace" hotelini tikdirməklə Rusiya hökuməti ilə münasibətləri daha da kəskinləşdi. Onun Moskvadakı digər obyektləri də əlindən çıxdı.

Bakıda yəhudilərin çoxuşaqlı ailəsində anadan olan İsmayılov bizneslə hələ uşaq yaşlarından məşğul olmağa başlayıb. Əvvəlcə Bakıda sexdə işləyən atasına kömək edib, daha sonra şəhərdə açılan ilk kommersiya mağazasını idarə edib. Sonra Moskvadakı Plexanov adına İnstituta daxil olub və Moskvada məskunlaşıb.

**T.İsmayılov 1989-cu ildə "AST" şirkətlər qrupunu təsis edib. 2009-cu ildə isə T.İsmayılov ilk dəfə Rusiyanın ən zəngin biznesmenlərinin siyahısına düşüb. "Forbes" onun sərvətini 600 milyon dollar dəyərində qiymətləndirib.**

***

Azərbaycanda "Milyarderlər ittifaqı" kimi tanınan RATİ -nin aparıcı simalarından biri olan "AST Telman"la səlahiyyətlərinin əhəmiyyətli dərəcədə itirən nəqliyyat naziri Ziya Məmmədov və AZAL prezidenti Cahangir Əsgərovla dostluq münasibətləri olduğu sirr deyil. Son müsahibələrinin birində nəqliyyat naziri Ziya Məmmədovla dostluq münasibətləri haqda sualına cavab verməyən T.İsmayılov AZAL prezidentini "həyat yolunda indiyədək gördüyü ən ləyaqətli adam" kimi xarakterizə etmişdi. Amma mediada çoxdan belə məlumatlar vardı ki, "AST Telman" la nəqliyyat nazirinin birləşdirən təkcə dostluq münasibətləri deyil, eyni zamanda ortaq biznes layihələdir.

**İddia edilirdi ki, nəqliyyat nazirin qəzəbə gəlməsi səbəbləri sırasında T.İsmayılovla dostluqunun da rolu olub.**

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015



# Minyonlar kimdir

Zamin HACI
zaminhaci@gmail.com

**(tarixi araşdırma)**

**Allaha şükür, hər şey əmin-amanlıqla geridə qaldı. Xalqımız əziyyət çəkmədi, hökumət özü deputatları təyin elədi, qarşıdan gələn 5 ildə də asudə dolanacağıq. Yoxsa seçki keçirdən ölkələri görmüşük nə kökə düşür. Almaniya dağılır, Suriyada müharibə gedir, Ermənistan boşalır, Fransada biqeyrətçilik baş alıb gedir. Bizdə bunların hansı var? İnsafla danışaq gərək. Hətta qeyrətli müsəlman kişilərimiz dünən çox yaxşı bir təklif irəli sürüblər, deyirlər gərək metroda bir vaqon qadınlar üçün ayrılsın. İnşallah, qadınların bizdən tamam ayrılıb Amazonka Respublikası tipində bir cümhuriyyət qurmasını da görərik. Hərənin öz yeri var. Kişi kişi ilə, qadın qadınla yaşamalıdır.**

Seçki günü kimi deputat qoyublar, kim harda məntəqə sədri ilə cırmaqlaşır - bunlara qəti maraq eləmədim. Dünən bu haqda yazmışam, çox başınızı ağrıtmayım. Ancaq gecə yarısı, artıq təqvim 2 noyabrı göstərəndə internetə girdim ki, görüm respublikamızın çiçəklənməsi naminə hansı işlər görülmüşdür. Google axtarış sistemini açanda gördüm bura şirkət bir təzə "dudl" (türkün məsəli) yerləşdiribdir. Həmin haqq-hesabdan məlum olurdu ki, 2 noyabr riyazi məntiqin atası Corc Bul adlı kişinin doğum günüdür. Bizdə məntiq-zad heç kimə lazım olmur, o üzdən baxdım ki, görüm bu rəhmətlik Bul müəllim nə bulmuşdur. Belə yazmışdılar: alim ilk dəfə düşüncə obyektlərini hərf və rəqəmlərlə işarələyib riyazi modelləşdirmə aparıbdır, misal üçün, buynuzlu heyvanları x ("iks"), qoyunları isə y ("iqrek") ilə işarələyib, daha sonra "xy" vahidi ilə "bir sürü qoyunu" sinifləşdirmişdir. Gördüyümüz kimi çox böyük alim olub, Bakıda yaşasaydı MSK-da işə götürərdik.

Bu gün sizə ayrı bir mövzudan bəhs etmək istəyirəm. Başqa dahini aşkar eləmişəm, bu adam da milliyətcə fransızdır, özü islamı qəbul eləmişdir, daşı düşsün bizim ateistlərin başına - söhbət multiplikator Jak Mensong İmprudent yoldaşdan gedir. Bəlkə hamınız izləmisiniz, bu insan "Minyonlar", "Çılğın oğru" cizgi filmlərinin yaradıcısıdır, çox sevimli minyon obrazları yaratmışdır.

Hə, indi mətləbə keçim: mən analizlər nəticəsində aşkar etmişəm ki, bu minyonlar əslində azərbaycanlıdır. Doğrudur, indiyə qədər minyonların hansı millətdən olması dəqiq bilinmirdi, onların damarlarında hansı qanın axması şübhə altında idi. Örnək üçün, minyonlar ac olanda "Mi vont banana" deyirlər. Niyə məhz banan? Diqqət etsəniz, bizim ölkədə əsas müqayisə edilən ərzaq məhsulu banandır. Hər dəfə hansısa jurnalist yazır: "Gürcüstandan bananı filan qəpiyə aldım, Bakıda isə filan manata". Bu, çox geniş yayılmış ekonomik ölçüdür. Amerikada-zadda qamburgerin qiyməti kimi.

Yaxud minyonlar qəzəblənəndə "Tatata bala tu!" deyir. Görün nə qədər bizə yaxındır, sanki "Balanı tutsunlar" deyilir. Yanğına "Bi du bi du bi du" deyirlər. Biz də harasa yananda bənzər səslər çıxarırıq. Yanğınsöndürən maşının gəlişini bu cür imitasiya edib içəridə ölənlərə təskinlik veririk.

İkincisi, minyonlar sarıdır, aşırma şalvar geyinirlər. Eynilə bizim məktəbli uşaqlarımıza bənzəyirlər. Gülüşləri də tam azərbaycanlı gülüşüdür, xüsusən ictimai nəqliyyatda 3-4 qara gödəkçəli gənc oğlanlarımız və əsəbi qızlarımız bir yerdə olanda bu cür səslər çıxararaq sevinclərini büruzə verirlər.

Üçüncüsü, minyonlar azərbaycanlılar qədər şirindir. Allah hər kəsə belə şirin bala qismət eləsin, ilahi amin!

Laçının Minkənd kəndində qədim minyon babalarımıza aid küp-qəbirlər aşkar edilmişdi, indi ermənilər onları özününküləşdirir. Mingəçevir şəhərini də minyonlar tikiblər, adı "Minyonlar gəldi çevirdi" deməkdir. Yaqub müəllimin Tarix İnstitutunun araşdırmalarına görə Midiya dövlətinin adı Minyoniya olub, sonra Mindoniya-Midoniya-Midoya-Midiya şəklində dəyişərək günümüzə çatmışdır.

Ancaq təbii, əsas bənzərliyimizi qəsdən axıra saxladım. Minyonların da azərbaycanlılar kimi ən böyük dərdi yiyə dərdidir! Hər 3 filmdən bildiyimiz kimi, minyonlar qədim dövrdən bəri özlərinə ağa axtarırlar. İstəyirlər hansısa lotu bir oğlan, hansısa xilaskar olsun (son filmdə bir arvad yiyə tapmışdılar, ancaq o qədər yarımadılar), bunlar da onun arxasıyca düşüb yeni üfüqlər kəşf etsinlər. Bu ağa mümkün qədər qəddar, oğru, alçaq, yaramaz, pis adam olmalıdır. Nədənsə minyonlar normal rəhbərə qane olmurlar.

**Yazımın sonunda təzə deputatxananın köhnə üzvlərini minyon dilində təbrik edirəm: "Poka bananonina baboy!"**

---

**Türkiyədə keçirilən 1 noyabr parlament seçkisinin nəticələrinə görə AKP yenidən təkbaşına iqtidar qura biləcək. Bütün gözləntilərin əksinə olaraq AKP artıq 4-cü dəfədir ölkədə hakimiyyət qurmaq şansı qazanıb. Seçkinin gedişatı və nəticələri ilə bağlı "Yeni Müsavat"ın suallarını "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu cavablandırır.**



# "Ərdoğan Azərbaycana yeni siyahılar göndərəcək"

## **Elxan Şahinoğlu:** "AKP bütün proqnozları darmadağın edərək itirdiyi səsləri artıqlamasıyla geri qaytardı"

***- Elxan bəy, sizcə, Türkiyədə parlament seçkisinin nəticəsi niyə gözləntilərin və anket sorğularının tam əksi oldu?***

- Həqiqətən Türkiyədə keçirilən rəy sorğularının demək olar hamısı AKP-nin təkbaşına hökumət formalaşdırmaq üçün qazanacağı səsin yetərli olmayacağını proqnozlaşdırırdı. Rəy sorğuları bir yana, çoxları 5 ay bundan əvvəlki seçki nəticələrinin təsiri altında idi. Düşünülürdü ki, əgər AKP 7 iyun seçkisinin nəticəsinə uyğun olaraq təkbaşına hökumət qurmaq üçün səsi kifayət etməyibsə, hakim partiyanın qısa zaman kəsiyində itirdiyi səsləri geri qaytarması problematik olacaq. AKP bütün bu proqnozları darmadağın edərək 7 iyunda itirdiyi səsləri artıqlamasıyla geri qaytardı. 7 iyunda səslərin 40 faizini qazanmışdısa, indiki nəticəsi 49-a yüksəldi, əlavə 2 milyon nəfərin səsini qazandı.

***- AKP-nin bu gözlənilməz qələbəsinin sirri nədədir?***

- Əslində seçki nəticəsinə görə AKP-nin birinci partiya olacağı bəlli idi. Ancaq çoxları özünü koalsiyon danışıqlara kökləyirdi. Qələbənin sirrini 5 aylıq müddətdə axtarmaq lazımdır. Birincisi, 5 ay içərisində AKP hökuməti PKK-a ilə silahlı mübarizəyə start verdi. AKP hakimiyyətdə olduğu 13 ildə PKK ilə qeyri-rəsmi danışıqlar aparırdı. Bu, cəmiyyətin əksəriyyətinin çağırışı idi ki, AKP bunu yerinə yetirməyə çalışırdı. Çünki 1980-90-cı illərin silahlı mübarizəsi nəticə verməmişdi, terrorçular xeyli itkiyə məruz qalsalar və liderləri həbs edilsə də güclərini qoruya bilmişdilər. Rəcəb Təyyub Ərdoğan qollarını çırmalayaraq kürdlərin radikal kəsiminin xeyli tələbini yerinə yetirdi. Ancaq bəlli oldu ki, PKK və ona dəstək verən kürdlərin radikal kəsimini xalqlarının problemləri heç maraqlandırmırmış. AKP-nin ölkənin kürd əhalisi üçün bu qədər etdiklərinin qarşılığında PKK yenə silaha əl atdı. Bu dəfə AKP PKK-ya onun başa düşdüyü dildə cavab verdi. PKK-nın daxildəki və xaricdəki mövqelərinə zərbələr endirildi. Bu, əvvəllər danışıq tələb edən cəmiyyətin istəklərinə cavab idi. Çünki cəmiyyətin eyni təbəqəsi PKK-nın əsl simasını gördü. AKP-nin PKK-ya qarşı qəti addımları cəmiyyətdə müsbət qarşılandı. İkincisi, cəmiyyət 7 iyun seçkisinin nəticəsinə görə koalisyon hökumətin yarana bilməməsindən məyus oldu və bunun günahını müxalifətdə gördü. Çünki AKP həm CHP, həm də MHP ilə koalisyon qurmağa hazır idi. Müxalifət ağır şərtlər irəli sürdü və koalisyon danışıqları nəticə vermədi və cəmiyyət bu qərara gəldi ki, yenidən uzun-uzadı koalsiyon danışıqlardansa AKP-yə səs vermək daha yaxşıdır ki, təkbaşına hökumət formalaşdırsın. Əslində bu parlament seçkisi referenduma bənzəyirdi. Xalq o və ya bu partiyaya səs vermir, "Sən AKP-nin təkbaşına hökumət qurmasını istəyirsənmi" sualına cavab verdi. "Hə", ya da "yox" deyilməli idi. AKP-yə səs verənlərin bir hissəsi bu partiyanı bəyəndiyindən "hə" demədi, sadəcə koalisyon hökumətə "yox" dedi.

**"Ərdoğan kürdlərin radikal kəsiminin xeyli tələbini yerinə yetirdi. Ancaq bəlli oldu ki, PKK və ona dəstək verən kürdlərin radikal kəsimini xalqlarının problemləri heç maraqlandırmırmış"**

***- Müxalifətin seçki kampaniyasını bu qədər sönük aparmasının bu məsələdə rolu nə qədərdir?***

- Müxalifət partiyalarından sadəcə, CHP səs itirmədi, əksinə, 7 iyun seçkisi ilə müqayisədə daha 2 millət vəkili yeri qazandı. 7 iyun seçkisində millət vəkillərinin sayı 132 idisə, hazırkı nəticəyə görə bu say 134-dür. Ancaq bunu uğur saymaq olmaz. Partiyanın uğuru iqtidar olmaqdır. CHP isə illərdir AKP-yə məğlub olur.

***- Sizcə, CHP "ödünç oy"larını niyə geri qaytara bilmədi?***

- CHP lideri Kamal Kılıçdaroğlunun AKP ilə mübarizə aparması çətindir. Çünki Kılıçdaroğlu iki nəfərə - cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğan və baş nazir Əhməd Davudoğluna qarşı mübarizə aparır. Kamal Kılıçdaroğlu vaxtilə İstanbul bələdiyyə başqanı seçkisində kifayət qədər səs qazanmışdı. Doğrudur, sonda Kılıçdaroğlu İstanbulun hazırki AKP-li merinə məğlub olsa da, aralarındakı fərq böyük deyildi. Məhz bu seçki Kılıçdaroğlunun ulduzunun parlamasına yol açdı və o bir az sonra CHP lideri Dəniz Baykalı əvəz etdi. Ancaq sonrakı bütün seçkilərin hamısında Kamal Kılıçdaroğlu AKP üzərində qələbə çala bilmədi. CHP daima ikinci yeri tutur. Kamal Kılıçdaroğlunun imkanları bura qədərdir. Artığını ondan tələb etmək çətindir. Belə olan halda CHP-nin iki yolu qalır: ya Kamal Kılıçdaroğlu ilə yola davam etmək və uzun illər AKP-nin kölgəsində qalmaq, ya da ki yeni lider axtarışına baş vurub durumu dəyişməyə çalışmaq.

***- MHP isə çox geriləd? Sizcə, hansı səbəbdən MHP-yə verilən səslər AKP-yə getdi? Seçkidən dərhal sonra Bahçelinin İndiki mərhələdə MHP sədri Devlet Bahçelinin istefasını real görünürmü?***

**"Cəmiyyət 7 iyun seçkisinin nəticəsinə görə koalisyon hökumətin yarana bilməməsindən məyus oldu və bunun günahını müxalifətdə gördü"**

- 1 noyabr seçkisinin nəticələrinə görə doğrudan da MHP-nin səsləri AKP-yə getdi. Bununla MHP 7 iyun seçkisinin nəticələrinə görə tarixi fürsəti əldən verdi. 7 iyun seçkisinin nəticələrinə görə AKP-MHP koalisyonu ən uğurlu format idi. İkisinin də sağ mühafizəkar partiya olaraq oxşardır. Bu sıraya AKP-nin millətçi kəsimini də əlavə etmək lazımdır. Təsadüfi deyil ki, MHP 13 ildə AKP-nin bəzi qanunlarına da dəstək vermişdi. MHP 7 iyun seçkisinin nəticəsinə uyğun olaraq əlini daşın altına qoyaraq hökumətə ortaq olacaqdı, Türkiyənin daxili və xarici siyasətinə təsir edəcəkdi. Ancaq MHP lideri Dövlət Baxçalı bəri başdan AKP-yə "bizim qapımızı açmayın" mesajını yolladı. Nəticə göz qabağındadır, milliyyətçilərin 2 milyon səsi AKP-yə getdi, MHP 81 millət vəkilindən 41-ə endi, türk millətçilərin səsləri PKK-nın siyası qanadı olan Xalqların Demokratiya Partiyasından (HDP) da az oldu. Yəni hazırda Türkiyə parlamentində millətçi kürdlər millətçi türklərdən çoxdur. Bunun səbəbini Dövlət Baxçalının siyasətində axtarmaq lazımdır. HDP 51 millət vəkili yeri qazandı. AKP-nin artıq MHP-yə və onun dəstəyinə ehtiyacı yoxdur. Hər təklifə "yox" deyən Baxçalının özünü istefa tələblərindən, partiyasını isə daxili tələtümlərdən qoruya biləcəyinə şübhə ilə yanaşıram.

***- AKP kürd məsələsini HDP ilə bərabər çözmək istəyəcəkmi? Yaxın gələcəkdə bu məsələ ilə bağlı hansı planlar ola bilər?***

- Ümumiyyətlə, 1 noyabr parlament seçkisindən çıxan 4 əsas nəticəni vurğulamaq istərdim. Birinci nəticə Ərdoğan bu səslərə arxalanaraq yenidən cumhurbaşqanının səlahiyyətlərini artıracaq konstitusiya dəyişikliklərini gündəmə gətirəcək. İkinci nəticə PKK-ya qarşı mübarizə davam edəcək, eyni zamanda problemin danışıqlar yoluyla həlli imkanlarına da qayıdılacaq. Üçüncü nəticə Fətullah Gülən tərəfdarlarının sıxışdırılması prosesi davam edəcək. Koalisyon hökumət qurulsaydı, Gülən tərəfdarları ilə mübarizə arxa plana keçəcəkdi. Ancaq 1 noyabr seçkisinin nəticəsinə görə Gülən tərəfdarları Ərdoğanın növbəti hücumlarına hazırlaşmalıdırlar. Bu o deməkdir ki, Azərbaycana da növbəti siyahılar göndəriləcək, SOCAR rəhbərliyi də buna hazır olmalıdır. Çünki, Ərdoğan ailəsinə yaxın mətbuat son zamanlar Bakıya mesaj göndərir ki, SOCAR-ın Türkiyədəki törəmə şirkətində Gülən tərəfdarları çalışır və onları təmizləmək lazımdır. Seçki nəticəsi Ərdoğanın əlini yenidən güclənib, o Gülənin ölkə daxilindəki və xaricindəki mövqelərini əvvəlki əzmlə hədəf alacaq. Dördüncü nəticə müxalifət liderlərinin istefası aktuallaşacaq, CHP və MHP məğlubiyyətlərdən bezib, müxalifətdə yeni liderlərə ehtiyac var. Yəqin ki, hər iki partiyanın içində qurultay tələbləri çoxalacaq.

**"1 noyabr seçkisinin nəticəsinə görə Gülən tərəfdarları Ərdoğanın növbəti hücumlarına hazırlaşmalıdırlar"**

❑ Aygün MURADXANLI

# Qarabağa dair xalq diplomatiyası qayıdır - ilginc gəlişmə

## Yeni təşəbbüsün arxasında məhz Amerikanın durması təsadüfi deyil; gündəmdən çıxmış və fiasko olmuş projeyə Qərb niyə “yeni nəfəs” və vəsait vermək istəyir?..

**ATƏT-in Minsk Qrupunun bölgəyə bu il üçün böyük ehtimalla sonuncu səfəri də başa çatdı. Xəbər verildiyi kimi, diplomatların budəfəki ziyarətində əsas məqsəd ilin axırınadək Azərbaycan və Ermənistan prezidentlərinin görüşünə nail olmaq idi. Hədəfə çatılacaq ya yox, hələlik dəqiq söyləmək çətindir, ancaq səfərlə bağlı diqqətçəkici məqamlardan biri də xalq diplomatiyasını yenidən gündəmə gətirmək cəhdləri ilə bağlı oldu.**




Söhbət ilk növbədə azərbaycanlı və erməni qaçqınlarla dialoq yaratmaq təşəbbüsündən gedir. Siyasi müşahidəçilərə görə, belə bir təşəbbüs məhz amerikalı həmsədr Ceyms Uorlikdən gəlib.

**Qeyd edək ki, Bakıda olarkən Uorlik Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyində görüşdə bunları deyib:** “Bizim məqsədlərimizdən biri informasiyaları hər iki tərəfə təqdim etməkdir. Biz hər iki tərəfdə həqiqətən sülh istəyən yaxşı insanlarla tanış olduq. Onlar təhlükəsiz şəkildə yaşamaq istəyirlər. Azərbaycanı düşmən hesab etməyən ermənilərlə də tanış olduq. Münaqişənin sülh yolu həllini tapmaq bizim ümumi işimizdən asılıdır. Bizim ümumi vəzifələrimizdən biri tərəflərin yaxınlaşması, etimad tədbirlərinin gücləndirilməsidir”.

****

Maraqlıdır ki, bu arada Rusiya Erməniləri İttifaqının vitse-prezidenti, erməni German Ananyans Rusiyada yaşayan azərbycanlıları dostluğa dəvət edib. Belə ki, “Pravda” qəzetinə müsahibəsində Ananyans Moskvada yaşayan azərbaycanlılarla dostluq şəraitində yaşamağa çalışdıqlarını bildirib.

**Sitat:** “Biz Moskvada mehriban qonşuluq əlaqələri saxlamağa çalışırıq. Mən azərbaycanlılara həmişə deyirəm: Dağlıq Qarabağ məsələsinə bizi qatmayın, nə haqq-hesabınız var, orda çürüdün. Biz başqa dövlətdə yaşayırıq. Mən həmişə istəyirəm ki, evimizdə (Rusiyada - red.) sülh və mehribanlıq olsun... Bizdən ötrü ön planda Rusiyadır. Onun ordusunda xidmət edirik, Rusiya uğrunda döyüşəcəyik, vergilərimizi Rusiyaya veririk. Uşaqlarımızı burda tərbiyə edirik, bura bizim Vətənimizdir”.

Göründüyü kimi, Ananyans Qarabağ məsələsində faktiki, rəsmi İrəvandan və ənənəvi erməni ictimai fikrindən tam fərqli bir mövqe sərgiləyib, tipik ermənilər kimi Qarabağ separatçılığına açıq və birmənalı dəstək ortaya qoymayıb. Separatçıları haqlı çıxardığını bəyan etməyib.

***

Ananyans kimilər Rusiyadan savayı az da olsa, Ermənistan ərazisində də yaşayır və amerikalı vasitəçi sözsüz ki, “xalq diplomatları” qismində məhz bu düşüncədə olan erməni ictimai-siyasi xadimləri nəzərdə tutur, onlara ümid edir. Ancaq bu qəbildən olan ermənilərin öz mövqeyini Ermənistanda təbliğ eləməsi elə də asan deyil.

Çünki qeyd olunduğu kimi, işğalçı ölkənin əhalisi nə qədər acınacaqlı durumda yaşasa və iztirab çəksə də, Qarabağ məsələsinə yanaşmada maksimalist mövqeyini saxlayır. Ermənilərin bir çoxu hətta Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılmasının əleyhinədir.

Belə vəziyyətdə xalq diplomatiyasının populyarlıq qazanması əlbəttə ki, müşkül məsələdir. Təsadüfi deyil ki, indiyədək ABŞ-ın, Avropa Birliyinin bu yöndə həyata keçirdiyi layihələrin heç biri uğur qazanmayıb, ayrılan vəsait və qrantlar hədəfi doğrultmayıb, boşuna gedib.

O da faktdır ki, ən ünlü “xalq diplomatları”ndan olan Leyla Yunus və digərləri hazırda həbsdədir. Vaxtilə bu yöndə kifayət qədər fəal olmuş və ciddi səylər göstərmiş politoloq Eldar Namazovla onun erməni həmkarı David Şahnazaryanın səsi də çoxdandır çıxmır.

Yada gəlirsə, Namazov və Şahnazaryan sonuncu dəfə görüşərkən problemin dinc yolla həllinə yönələn və bir neçə bənddən ibarət birgə sənəd hazırlamışdılar. Hər iki tərəfi təmsil edən bir sıra ictimai simaların və QHT-çilərin də imzaladığı həmin sənəd həm Ermənistanda, həm də Azərbaycanda birmənalı qarşılanmamışdı.

***

Arxasında müstəsna olaraq Qərbin (ABŞ və Avropa Birliyinin) dayandığı bu təşəbbüslərin fiasko olmasının əsas səbəbi sözsüz ki, Rusiyanın Ermənistana, erməni toplumuna təsir-təzyiq rıçaqların saxlaması ilə bağlıdır. Bu rıçaqlar Qərb-Rusiya münasibətlərinin soyuması fonunda Kreml üçün indi daha böyük önəm kəsb edir.

Paralel surətdə artıq vuğrulandığı kimi, erməni ictimai şüurunda kök salmış maksimalist mövqe iki xalqın yaxınlaşmasına və Qarabağ konfliktinin ədalətli həllinə ciddi əngəllər yaratmaqdadır - hansı ki, Moskvaya tamamilə sərf edir.

Nəhayət, erməni ictimai şurunda Rusiya faktoru əfsuslar olsun ki, hələ də xilaskar, Ermənistan və separatçı rejimin qarantı kimi qəbul olunmaqdadır. Yəni rus-erməni sevgisi əslində qarşılıqlıdır. Təsadüfi deyil ki, bu günlərdə Ermənistanda keçirilən rəy sorğusu ermənilərin 90 faizinin Rusiyanı Ermənistanın 1 nömrəli dostu saydığını üzə çıxarıb...

***

Sadalanan göstəricilər və reallıqlar fonunda Qərb təzədən böyük paralar hesabına Qarabağ problemi Rusiyanın inhisarından, Ermənistanı isə onun nəzarətindən çıxarmağa yönəlik “xalq diplomatiyası”nı dirçəldə biləcəkmi, gündəmdən çıxmış və fiasko olmuş bir projeyə “yeni nəfəs” verəcəkmi?

Bəzi müşahidəçilərə görə, prosesə yalnız Amerikanın Suriya və Ukrayna məsələlərində diplomatik uğuru güclü stimul verə bilər ki, Ceyms Uorlikin məlum açıqlaması da ən əvvəl bunun anonsudur.

❑ **Siyasət şöbəsi**

# Sükut illəri...



**Hüseynbala SƏLİMOV**

**Artıq ölkədə baş verən hadisələrə acıqlanmıram. Əksinə, çalışıram ki, hər hadisədən özüm üçün gülməli nəsə tapım. Deyim sizə ki, cəhdlərim boşa da çıxmır, baxıb görürsən ki, bizim ölkədə gülməli hadisə daha çoxdur, nəinki acıqlanmalı...**

Budəfəki seçkilərdən də yadımda bir ifadə qaldı: “sükut günü”!.. Bəli, bizim telekanallar Türkiyənin ardınca ölkədə bir günü sükut günü elan etdilər...

Türkiyəni başa düşürəm. Orada çox şey olur, danışmaq vaxtı və sükut məqamı olur. Amma bizə nə olub, əzizlərim? İlin 365 günü bizim üçün elə sükut günü deyilmi? İlin 365 gününü dilimizi necə farağat saxlamaq haqqında düşünmürükmü? “Sükut günü” deyib dilimizə daha bir qıfıl vurmaq haramıza yaraşır?..

Bizim müxalifət partiyaları bu vaxta qədər seçkilərdə üç mandatdan çox qazanmayıblar. Bu, hələ bir az bundan əvvəlin statistik göstəricisidir. Bu il necə olacaq, hələki bilmirəm, çünki mən bu sətirləri yazanda hələ tam nəticələr elan olunmamışdı...

Amma hansı mandatdan danışmaq olar ki, bizim partiyalar guya efir vaxtı almaq üçün lazımi qədər namizəd də qeydiyyatdan keçirə “bilmirlər”?

Doğrusu, mən seçkilərdən yalnız tele-debatları gözləyirəm. Ona görə ki, orada çox gülməli məqamlar olur. Hər dəfə belə tele-debatlardan sonra hakimiyyətimizə şükürlər diləyirəm ki, bizə belə gülməli və əyləncəli dəqiqələr bəxş edir...

Amma bunu da çox gördülər. Səhv etmirəmsə, artıq ikinci dəfədir ki, bizim partiyalar efir vaxtı ala bilmirlər. Prinsipcə, pullu efir vaxtı almaq olardı və bu yolla azacıq da olsa, nəsə demək olardı. Amma bunun üçün nə pul var, nə də imkan. Hətta pul tapılsa belə bizim telekanallar cəsarət edib müxalifətə efir verməz!..

Ona görə də xam xəyallara düşməyək. Ən maraqlısı heç bilirsinizmi nədir? Hər sahədə müəyyən mərtəbəyə çatmış insanlara xüsusi rəğbət olur. Siyasət və siyasətçilər də belədir....

Bəli, düşünürsən ki, bu adamlar bir yox, bir neçə dəfə deputat olubsa, deməli, nəyəsə qadirdilər. Amma həqiqət nə deyir?..

Onu deyir ki, bu hakimiyyətin adamlarının çoxu parlament nədir, heç qəsəbə bələdiyyələrinə seçkilər zamanı belə özlərini sınamayıblar, doğru-dürüst seçki nə olduğunu bilməyiblər...

Ona görə də siyasi həyatımız çox kasad görünür. Həm intellektual baxımdan, həm də digər meyarlardan. Demirəm ki, bizimkilər siyasətdə göydə quş özünü hiss edən kimi hiss edirlər...

Yox, qətiyyən belə deyil. Onların da 80-ci illərdən qalmış şüarları tamam bezdirib bizi! Amma, qardaş, nə etmək olar? Hətta belə bir müxalifət, axırıncı dəfə kitabı 80-ci illərdə açan və elə dərhal da örtən müxalifət də qorxudur bu hakimiyyəti! Hətta onlarla da yarışmağa cəsarət etmirlər...

Ona görə də efir vaxtı vermirlər müxalifətə... Olsun. Adamı dilxor edən odur ki, hamısı olmasa da, bəzi təşkilatlar yenə də yazacaqlar ki, ölkə irəliyə doğru bir addım atdı. Olsun... Qoy, lap bir yox, üç addım olsun! Amma hara? Hansı istiqamətə?..

Seçki ərəfəsində baxırdın ki, rusiyalı müşahidəçiləri danışdırırlar. Nəyə lazım bu?..

Məgər aydın deyilmi ki, bu adamlar seçkinin-filanın fərqində deyil və bu ölkəyə nə məqsədlə gəldiklərini bir Allah, bir bizim hakimiyyət və bir də ki, özləri bilirlər?!.

Üstəlik, rusiyalı müşahidəçilərdən elə kobudlarını danışdırırdılar ki, bu adamların Azərbaycanda demokratiyanın fərqində olmasına heç yuxuda da inana bilməzsən...

Ona görə də ən yaxşısı sükut günüdür... Bu ifadəni yaxşı tapıblar. Amma daha yaxşısı sükut illəri olardı...

Bəli, bu illər ərzində susmalı olduq... Nə etmək olar? Burada yadıma hələ ki oxumadığım bir əsər, A.Soljenitsının bir əsəri düşür. Adında maraqlı bir ifadə vardı onun: palıd kötüyü ilə döyüşmək... Bax, belə... Əvvəllər həmişə oxuduğum və bəzən də təkrar - təkrar oxuduğum əsərlərdən misal gətirirdim. Gördüm ki, bu, bir fayda vermir, indi başlamışam oxumadığım əsərlərdən sitat gətirməyə...

Ona görə ki, bu ölkədə hər şey baş-ayaq olub, tərsinə çevrilib. Ən maraqlısı bilirsiniz nədir? Tələbəlik vaxtı müşahidə etdiyim detalı deyəcəm...

**O vaxt tələbələr də iki cür olurdu: imtahanda köçürənlər və prinsipial olaraq köçürməyənlər. Köçürənlər bəzən köçürməyənlərdən də yaxşı qiymət alırdılar. Amma heç vaxt bununla öyünmürdülər, çünki özləri də bilirdi ki, köçürərək yaxşı qiymət alıblar. İndi düşünürəm ki, görən, bizim deputatların bəzisi necə, heç özlərinin necə seçildiklərinin fərqindədirlərmi?..**

# “Əmir Qafqaz” qrupunun çeçen üzvü İstanbulda öldürüldü

**Türkiyənin İstanbul şəhərində daha bir çeçen qətlə yetirilib. APA-nın Türkiyə mətbuatına istinadən xəbərinə görə, 31 yaşlı Georgi Kamayev evinin qarşısında odlu silahla öldürülüb. Silahlı naməlum şəxslər lüks avtomobili ilə evinin qarajına girmək istəyən G.Kamayevi atəşə tutublar.**



Onun 2008-ci ildə Çeçenistandan Türkiyəyə köçdüyü və xeyli müddət orada yaşadığı, sonra Suriyaya getdiyi müəyyənləşib. Məlum olub ki, G. Kamayev Çeçenistanda “Əmir Qafqaz” qrupunun tərkibində döyüşüb. “Moqamed Edelgriev” kimi tanınan G.Kamayevin 3 qardaşının da silahlı birləşmələrdə döyüşdüyü və öldürüldüyü məlum olub.

**Məlumata görə, G.Kamayev qısa müddət əvvəl arvadı və uşaqları ilə birlikdə Suriyadan Türkiyə keçib. O, Suriyada hökumət qüvvələrinə qarşı döyüşüb. Orada əri ölən bir qadınla evlənib və onun 2 azyaşlı uşağını övladlığa götürüb. Qeyd edək ki, bundan əvvəl də İstanbulda 4 çeçen yaraqlı öldürülüb. Onların qətlində səs boğuculardan istifadə olunub. Cinayətlərlə bağlı ‘Zona’ kod adı ilə tanınan çeçen əsilli Temur M. saxlanılıb.**



# Susan çoxluğun parlamenti

**Azər RƏŞİDOĞLU**

**Parlament seçkiləri başa çatdı. Artıq qanunverici orqanın tərkibində nəinki müxalifətçi, hətta "konstruktiv müxalifət"in belə bir nəfər təmsilçisi yoxdur. Beləliklə, Azərbaycanın yaxın tarixində sanki ən önəmsiz seçki keçirildi.**

Ötən seçkilər zamanı heç olmasa seçkinin imitasiyası olurdu. Bu dəfə seçkinin imitasiyası belə olmadı. Parlamentdə hətta hakimiyyətdaxili qrupları təmsil edən qanadların təmsilçiliyində də yekcinslik müşayiət edilir. Ötən seçkilərdən fərqli olaraq, bu seçkidə hakimiyyətin tərəfində olan namizədləri də çox saf-çürük etdilər, nisbətən azadfikirli simalar seçkiyə buraxmadılar.

Seçki öncəsi durum da ürəkaçan deyildi. Bu dəfə telekanallarda debatlar belə təşkil edilmədi. İmitasiya üçün lazım olan deputatlığa namizədlərin əksəriyyətinin seçicilərlə görüşlərinə belə imkan verilmədi. Bütün bunlar əvvəlcədən seçkiləri önəmsiz edirdi. Seçki öncəsi ölkədə siyasi fəallığın olmaması təbii ki, öz təsirini göstərməliydi. Digər tərəfdən, Azərbaycan vətəndaşları da seçkilərə etimadını tam itirib. Bu, çox ciddi amildir və yaxın zamanlarda ölkənin siyasi həyatına öz təsirini əsaslı şəkildə göstərəcək. Belə ki, hər seçkidən sonra cəmiyyətin demokratikləşməsi istiqamətində insanların ümidləri sarsılıb. Müxalifətin, vətəndaş cəmiyyətinin təzyiqlərlə üzləşməsi baş verdi. Məsələ ondadır ki, Azərbaycanda artıq demokratik mübarizənin perspektivinin olmaması barədə rəy formalaşıb. Ona görə də seçkilərə münasibət bərbad vəziyyətdə oldu.

Azərbaycan hakimiyyəti artıq beynəlxalq təşkilatlara qarşı da sərt ritorika ilə çıxışını davam etdirir. Artıq Azərbaycanda demokratik institutların yaradılması ilə bağlı rəsmi Bakıya hansısa mesajların verilməsinin perspektivinə Qərb təşkilatları, beynəlxalq qurumlar da inanmır. Azərbaycan Rusiyaya ilə yaxınlaşmaq yolunu seçdi. Bu baxımdan, rəsmi Bakı Rusiya ilə başlı-başına buraxılıb.

Kənardan görünən budur ki, Azərbaycan öz seçimini edib. Demokratik dünyadan, Avropadan, avro-atlantik məkana inteqrasiyadan uzaqlaşmaqla məşğuldur. Bütün bunlar son nəticədə ciddi problemlər yarada bilər. Azərbaycan siyasətinin demokratikləşə biləcəyi ehtimalı yüksək deyil.

Maraqlısı odur ki, beynəlxalq təşkilatların bu seçkilərə münasibətinin indiki kimi olmasının əsas səbəbi demokratik mühitin yoxluğudur. İndidən demək olar ki, yeni seçilmiş parlamentin legitimlik məsələsi rəsmi Bakı üçün problem yaradacaq. Son parlament seçkiləri Qarabağ danışıqlarında da Bakı üçün ciddi problemlər yarada bilər. Lakin rəsmi Bakı ilə əməkdaşlıq davam edəcək. Bütün bunların əsas səbəbi cəmiyyətdir. Cəmiyyət itirdiyini geri istəmirsə, heç bir beynəlxalq təzyiq Azərbaycanda demokratik proseslərin başlanmasına rəvac verə bilməz.

Son parlament seçkiləri yalnız müxalifətə zərbə endirmir. Eyni zamanda, orta və kiçik bizneslə məşğul olan insanlar üçün ciddi problemlər yarana bilər. Ehtimal etmək olar ki, yaxın zamanlarda Azərbaycanda mühacirət etmək barədə düşünənlərin sayı artacaq.

**Bu gün ölkədə "Ukrayna variantı"ndan danışmaq da yersizdir. Seçkilərin nəticələrinin ləğvi uğrunda heç bir mübarizə getmir. Hazırda müxalifət daxilində lider olmaq uğrunda mübarizə gedir. Çünki müxalifətin yeri boşdur. İndi iqtidar çalışacaq ki, bu yeri ona sərf edən qüvvələr tutsun. Əslində, müxalifətin fəaliyyəti üçün də heç bir şərait də yaradılmayıb. Müxalifət təsirli, güclü, efiri, mitinq yerini ala bilən müxalifət olmalıdır. Müxalifətin resursları kifayət etməlidir ki, hakimiyyəti islahatlara məcbur edə bilsin. Xalqı arxasınca apara bilən müxalifət yaranmış vəziyyətdə əsas gücə çevrilə bilərdi. Seçkiləri izləmək yox, onların demokratikliyinə nail olmaq lazım gəlir. Müxalifət yeni mərhələ üçün proqramını açıqlamalıdır...**

# "Cəmil müəllim, yeni parlamentdə mənə mandat vəd etmişdiniz - nə oldu bəs?"

## Milli Şura sədrinin deputat siyahısı yenidən gündəmə gəldi; Cəmil Həsənli üzr istəyəcəkmi?

**Azərbaycanda parlament seçkiləri başa çatdı. Gözlənilən və gözlənilməz nəticələrlə tarixə həkk olan bu seçkidə çoxlarının maraqla gözlədiyi bir məsələ var idi. Bu, ötən ayın 9-da Milli Şuranın sədri Cəmil Həsənlinin 1 noyabr seçkiləri ilə bağlı tərtib etdiyi yeni seçiləcək deputatların siyahısı idi.**

**C.Həsənlinin məlum siyahısında əsas diqqətçəkən məqam 17 saylı Yasamal 3-cü və 63 saylı Sabirabad seçki dairələri idi. Professor 17 saylıdan Ümid Partiyasının və "125-lər" Siyasi Klubunun namizədi İlhamiyyə Rzanın, 63 saylıdan isə, "Azadlıq 2015"-in namizədi, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin millət vəkili olacağını bildirmişdi. Amma C.Həsənlinin dediklərinin tam əksi oldu. Hər iki şəxs Milli Məclisdən kənarda qaldı.**

Seçkilərin nəticələrinin məlum olmasına baxmayaraq, "Azadlıq" qəzeti başda olmaqla, bəzi mətbuat orqanları C.Həsənlinin siyahısının doğru çıxması ilə bağlı xəbərlər dərc edirlər. Azərbaycandakı seçki mühitini nəzərə alsaq, professorun siyahısını siyasətlə məşğul olan istənilən bir şəxs hazırlaya bilərdi.

Maraqlıdır, deputat siyahısına görə, Milli Şura sədri P.Hüseyn və İ.Rzadan üzr istəyəcəkmi?

**İ.Rza "Yeni Müsavat"a açıqlamasında C.Həsənlinin proqnozunun səhv çıxmasına belə münasibət bildirdi:** "Cəmil müəllimlə çoxdan tanışıq. Onun siyasi fəaliyyətindən çox öncə. Mən jurnalist, o da alim kimi müxtəlif yerlərdə üz-üzə gəlmişik. Öz tərəfimdən müxalifət, iqtidar olmasından asılı olmayaraq, doğru insanları daim dəstəkləmişəm. Cəmil müəllim üçün yeganə fürsət idi ki, məni dəstəkləsin. Hərçənd ki, onun dəstəyinin seçilib-seçilməyəcəyimə kömək edəcəyini düşünmürəm. Mənim kimi insanlar heç bir təmənna güdmədən cəmiyyətə fayda vermək istəyirlər. Belə şəxslərə dəstək verməli idi. Amma o, fürsəti qaçırdı. Məni hakimiyyətin adamı kimi qələmə verərək, deputat seçiləcəyimi bildirdi. İndi sadəcə ona sual vermək istəyirəm. Nə oldu, Cəmil müəllim? Siz mənə yeni parlamentdə yer vəd etmişdiniz. Nəyə əsasən siz bunu demişdiniz? Məqsədiniz nə idi, əziz Cəmil müəllim? Mənə simpatiyası olan müxalif elektorat kifayət qədər idi. Ola bilsin ki, Cəmil müəllim bunları nəzərdə tutaraq, bu cür addım atdı, mənə səs verməsinlər deyə. Amma seçkini boykot edən bir insan kimi, Cəmil müəllim bilməli idi ki, insanların yönləndirilməsi burada mühüm rol oynamır. Əgər o, seçkini boykot edirsə, səslərin mənasız olduğunu bilirsə, yığacağım səslərin əhəmiyyətsiz olduğunu düşünürsə, o zaman həmin insanları yönləndirməyin mənası nədir? Bu baxımdan düşünürəm ki, bu mənada etməyib. Görünür başqa məqsədi olub. Bunun cavabını Cəmil müəllimin özü deməlidir. Sadəcə buna təəssüflənirəm. Hər zaman sadə insanların yanında olmuşam. Bu proses mənim üçün bir sınaq oldu. İnsanları tanıdım, saxtakarlığın miqyasını daha yaxından gördük. Qalib gələcəyimə ümid edirdim. Parlamentdə təmsil olunsaydım, xeyli işlər görərdim. Amma orada azlıqda qalacağımı da bilirdim. Çünki verəcəyim bir səs heç nəyi həll etməyəcəkdir. Bununla belə, seçicilərimlə çox işlər görəcəkdim. Dairəm çox problemli yer idi. Fəlakət zonası desək, daha doğru olar. Şəhərin mərkəzində insanlar ağır şəraitdə yaşayırlar".



**İlhamiyyə Rza:** "Məqsədiniz nə idi?"

**İ.Rza yeni seçilən deputatla bağlı da danışdı:** "Seçicilərimə keçmiş olsun deyirəm. Çünki üç dəfə dalbadal oradan namizədliyini vermiş şəxsi seçicilər tanımırsa, başqa sözə gərək yoxdur. İndiyə qədər baş verən problemlərin heç birində insanların yanında olmayıb. Hansı saxtakarlıq şəraitində seçilibsə, hər kəsə bəllidir. Çoxlu sayda seçki pozuntuları aşkar etdik. Seçki başlayandan bitənə qədər pozuntular davam etdi. Bu cür saxtakarlıqlar qarşısında deputat olmağa gərək yoxdur. Şükürlər olsun ki, heç vaxt bu yolla millət vəkili olmaq istəməmişəm. Çalışmışam ki, daim düz yolla gedim. Yolumuzdan heç vaxt dönməyəcəyik".

**"125-lər"in sədri C.Həsənlinin deputat siyahısının seçkilərdən sonra düz çıxdığını dərc edən mətbuat orqanlarına da toxundu:** "Açığı, o mətbuat orqanlarını heç izləməmişəm. Siyahı düz çıxmayıb, bunu hər kəs bilir. Siyahıda Cəmil müəllim məni və Pənah bəyi deputat kimi göstərib. Əyriyə düz deyənlərə cavab vermək çətindir. Onu da qeyd edim ki, seçkinin nəticələri ilə bağlı şikayət hazırlayırıq. Dairəmdə namizədin qalib gəldiyi səs faizlərinə diqqət etsək, saxtakarlıq açıq şəkildə görünər. Bunun sübuta ehtiyac yoxdur. Əgər mən rəqibimdən 5-10 faiz aşağı səs toplasaydım, qəbul edəcəkdim. Çünki onun kimi maddi imkanlarım yox idi. Könüllülərim maddiyyat güdmədən işləyirdilər. Seçki məntəqələri rəqibimin təbliğatı ilə məşğul olurdular. Hətta bir məntəqədə topa bülletenlər atmışdılar. Dövlət strukturları da onun yanında idi. Səs faizlərinə baxanda saxtakarlıq olduğunu düşünürəm. Bu şəxs seçkidən qabaq mətbuata deyirdi ki, artıq qələbə qazanmışam, mandat mənimdir. Hətta açıq şəkildə danışıqlar apardığını da gizlətmirdi".

❑ **Cavanşir ABBASLI**

# Akif Nağı dövlət başçısına müraciət etdi

**Parlament seçkilərində namizəd olmuş QAT sədri Akif Nağı namizəd olduğu 9 saylı Binəqədi seçki dairəsindəki "dəhşətli saxtakarlıq faktları" ilə bağlı, "seçkilərin nəticələrinin ləğv olunması, həmçinin saxtakarlara qarşı cinayət işinin açılması" xahişi ilə prezidentə, Mərkəzi Seçki Komissiyasına, Ali Məhkəməyə, Baş prokurora müraciət edib. QAT-dan aldığımız məlumata görə, müraciətdə deyilir: "Milli Məclisə seçkilər üzrə 9 saylı Binəqədi seçki dairəsindəki dəhşətli qanun pozuntuları ilə bağlı Sizə müraciət etməyi özümə borc bilirəm. Bu, Azərbaycan dövləti, milləti, Sizin hakimiyyətiniz üçün taleyüklü məsələdir. Ona görə də bunu özbaşına buraxmaq, bu faktların üzərindən keçmək olmaz. Namizəd olduğum dairə üzrə törədilmiş cinayətlərin ən dəhşətlilərini diqqətinizə çatdırıram.**



Akif Nağı

**1.** Hər seçki məntəqəsinə öz iradəsi ilə cəmi 80-100 nəfər gəlib. İcra hakimiyyətinin yaratdığı "yüzbaşı" sistemi ilə birlikdə isə hər məntəqəyə təxminən 150-200 nəfər seçici gəlib. Mənim hər məntəqədə oturan müşahidəçilərimin apardığı dəqiq uçot bunu aydın şəkildə göstərir. Axşam seçki bülletenləri "sayılarkən" isə məlum olub ki, hər məntəqədə orta hesabla qutulara əlavə 350-400 bülleten atılıb.

**2.** Seçki zamanı "karusel" deyilən mexanizmdən geniş şəkildə istifadə olunub. Dairənin ərazisində yaşamayan, qeydiyyatı olmayan şəxslər, xüsusilə də Tibb Universitetinin tələbələri, səhiyyə işçiləri, müəllimlər geniş şəkildə "karusel" əməliyyatında iştirak ediblər, eyni adamlar dəstələrlə gətirərək bütün məntəqələrdə səs veriblər.

**3.** Seçkilər başa çatdıqdan sonra seçki bülletenlərinin sayılması tam formal şəkildə aparılıb. Faktiki olaraq, səslər sayılmayıb, komissiya üzvləri, sədrləri səsləri saymadan hansı namizədə nə qədər səs istəyirlərsə veriblər. Müşahidəçilər səslərin sayılması prosesindən tam təcrid ediliblər. Seçki komissiyalarının sədrləri, üzvləri açıq şəkildə bildiriblər ki, kimi istəyirlər, onu da qalib çıxaracaqlar. Məntəqə seçki komissiyalarının sədrləri, üzvləri səslərin saxtalaşdırılmasında, saxta bülletenlərin qutulara atılmasında, qeydiyyatı olmayan şəxslərin " səs verməsinə" şərait yaradılmasında fəal iştirak ediblər".

**A.Nağı daha sonra bəyan edib:** "Tam məsuliyyətlə Sizə bildirirəm ki, 9 saylı Binəqədi seçki dairəsində heç bir seçki olmadı, bunun eybəcərlik və rüsvayçılıqdan başqa bir adı yoxdur. Bu, Azərbaycan dövlətçiliyinə, Sizin imicinizə ağır zərbədir. Bu cinayəti törədənlər, dairə seçki komissiyasının sədri və üzvləri, məntəqə seçki komissiyalarının sədrləri və üzvləri, həmçinin qanunsuz yolla deputat seçilmək istəyən namizəd cinayət məsuliyyətinə cəlb olunmalı, cəzalandırılmalıdırlar.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015

# İpoteka vədi-şərtlər və qaydalar yumşaldılacaq...

## Rəsmilər bildirirlər ki, mənzillərin qiymətinin süni şəkildə artırılmasına imkan verilməyəcək, həmçinin faizlər aşağı salına bilər...

**Bir müddətdir ki, ölkədə ipoteka kreditləri ilə bağlı yeni müzakirə başlanıb. Son olaraq maliyyə naziri Samir Şərifov deyib ki, bu il ipotekanın genişləndirilməsi məqsədləri üçün ayrılması nəzərdə tutulan əlavə vəsaitin yeni yaradılmış səhmdar cəmiyyət, yəni “Azərbaycan İpoteka Fondu” ASC vasitəsi ilə əhaliyə səmərəli çatdırılması istiqamətində işlər aparılacaq. Nazir “Azərbaycan İpoteka Fondu” ASC-nin yaradılmasını bu sahədə aparılan islahatların növbəti addımı kimi qiymətləndirib:**

“İpoteka Fondu ilə bağlı birincisi düzəlişin edilməsi ilk növbədə onunla bağlı idi ki, vaxtilə İpoteka Fondu Mərkəzi Bankın nəzdində yaradılmış bir qurum kimi fəaliyyət göstərirdi. Lakin, o zaman Azərbaycan prezidentinin verdiyi fərmanda da nəzərdə tutulmuşdu ki, İpoteka Fondu Mərkəzi Bankın nəzdində müvəqqəti fəaliyyət göstərəcək. Yəni, bu bir keçid dövrü üçün nəzərdə tutulan bir addım idi. Bundan sonra isə qurumun səhmdar cəmiyyətə çevrilməsi nəzərdə tutulurdu və artıq bu proses son fərmanla reallaşır. Eyni zamanda, bildiyiniz kimi, ölkə başçısı tərəfindən Nazirlər Kabinetinə və Mərkəzi Banka verilən tapşırığa görə, bu il ipotekanın genişləndirilməsi məqsədləri üçün əlavə vəsait ayrılması nəzərdə tutulub. Hesab edirəm ki, artıq vəsaitlər ayrılandan sonra "Azərbaycan İpoteka Fondu" ASC vasitəsi ilə bunun əhaliyə səmərəli çatdırılması istiqamətində işlər aparılacaq".

**İpoteka kreditləri üzrə faizlərin aşağı salınmasını istisna etməyən nazir deyib ki, hazırda bu məsələ araşdırılır:** “Şübhəsiz, çalışacağıq ki, faizlər əhalinin alıcılıq qabiliyyətinə cavab versin, uyğun olsun. Digər tərəfdən, biz bazarda yaranmış vəziyyəti də nəzərə almalıyıq. Yəni, bunlar arasında müəyyən bir kompromis tapılmalıdır. Hesab edirəm ki, münasib faiz dərəcələri tapılacaq”. Onun sözlərinə görə, ipoteka bazarında baş verən hadisələr daim diqqətdə saxlanılacaq və mənzillərin qiymətinin süni şəkildə artırılmasına imkan verilməyəcək:

“Biz bir tərəfdən çalışacağıq ki, bazarda faiz dərəcələri yüksək olmasın, digər tərəfdən biz bazarda cərəyan edən hadisələri nəzərdən keçirməliyik və elə etməliyik ki, faiz dərəcələri aşağı olmaqla, eyni zamanda mənzillərin qiymətləri artmasın. Bunların arasında orta bir variant seçməliyik. Ona görə, həmin səhmdar cəmiyyət yaradılıb ki, o, bazarda baş verən proseslərə çevik reaksiya versin, prosesləri çevik tənzimləyə bilsin”.

Nazir qeyd edib ki, ipoteka kreditlərinin məbləğinin artırılması istiqamətində də addımların atılması planlaşdırılır. Onun sözlərinə görə, hazırda ölkədə tətbiq olunan ipoteka modeli saxlanılacaq və bu modelin inkişafı istiqamətində tədbirlər davam etdiriləcək. Bununla belə, S.Şərifov deyib ki, ipoteka sahəsində maliyyələşmə mexanizminə dair bəzi düzəlişlər ola bilər. Qurum rəhbəri vurğulayıb ki, ipoteka kreditlərində ilkin ödənişin azaldılması məsələsinə də baxılacaq və münasib variant tapılacaq.




**Ekspertlər ipoteka kreditləri ilə bağlı vəd edilən yenilikləri müxtəlif cür qiymətləndirirlər. Ekspert Samir Əliyevin sözlərinə görə, əslində İpoteka Fondunun səhmdar cəmiyyətə çevrilməsi müsbət addımdır: “Bu, artıq imkan verəcək ki, fond müstəqil fəaliyyət göstərsin. Bu, həm də fondun məsuliyyətini artıracaq. Bu məsuliyyət sabah müəyyən çətinliklər də yarada bilər. Məsələn, İpoteka Fonda dövlət büdcəsindən pul ayrılırdı. Həmçinin yenidən maliyyələşmə vardı, ödənilən pullar yenidən kreditləşməyə yönəlirdi. Həmçinin fondun maliyyə mənbələrindən biri qiymətli kağızlar idi. Fond bu kağızları bazarda 3 fazidən satırdı və vəsait cəlb edirdi. İndi fondun Mərkəzi Bankın nəzdindən çıxarılması bir qədər o qiymətli kağızların, iqtiqrazların satışında problem yarada bilər. Çünki 2-3 faizlə heç bir bank bunu götürməkdə maraqlı deyil. Bankın pulu varsa, kredit şəklində 15-20 faizlə verər, daha çox pul qazanar”.**

Ekspertin sözlərinə görə, ilk növbədə ilkin ödəniş azaldılmalıdır: “İlkin ödəniş məsələsinə baxılmalıdır. Bizdə kifayət qədər yüksək faizdir, 20 faizdir və insanların əziyyət çəkdiyi problem məhz budur. İlkin ödəniş yaxşı olardı ki, 10 faizə qədər azaldılsın. Həmçinin dövlət başçısının 2005-ci ildə sərəncamı var idi və həmin sərəncama görə, Zəmanət Fondu yaradılmalı idi. İpoteka fondu nəzdində yaradılan bu qurum ilkin ödəniş problemini həll etməli idi. Yəni Zəmanət Fondu 20 faiz zəmanət verir və vətəndaşın ev alması asanlaşır. Bu məsələ öz həllini tapmalıdır. İkinci əsas məsələ ipoteka məbləğinin artırılmasıdır. Məbləğin iki dəfəyə qədər artırılması normal haldır. Üçüncü addım faizlərdir. Adi ipoteka minimal 8 faizdir. Sosial ipoteka 4 faizdir. Düşünürəm ki, adi ipoteka 4 faizə endirilsin. Bu üç əsas addımlar vacibdir. Eyni zamanda, yeni tikililərdən də ipoteka ilə mənzil almağın mümkünlüyü vəziyyəti bir qədər asanlaşdıra bilər. Eyni zamanda, digər alətlərdən istifadə etmək lazımdır. Təkcə fond vasitəsi ilə kreditləşmə aparmaq kifayət etmir. Tikinti-əmanət bankların yaradılması da bir istiqamətdir. Həmçinin hökumət sosial evlər tikməlidir”.

Qeyd edək ki, bir neçə gün əvvəl dövlət başçısı İlham Əliyev “Azərbaycan İpoteka Fondu” ASC-nin yaradılması haqqında fərman imzalayıb. Fərmanda bildirilir ki, ASC sosial qayğıya ehtiyacı olan əhali qruplarının mənzil təminatının yaxşılaşdırılması ilə bağlı işləri sürətləndirmək və bu sahədə şəffaflığı təmin etmək məqsədi ilə yaradılır. Bu ASC Mərkəzi Bankın nəzdində Azərbaycan İpoteka Fondunun hüquqi varisidir və onun bütün hüquq və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir.

**Yeri gəlmişkən, bu ilin sentyabrında Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov bildirib ki, yaxın günlərdə hökumətə təqdim olunacaq sənəddə sosial ipoteka şərtlərinin yüngülləşdirilməsi, faiz dərəcələrinin aşağı salınması və ilkin ödəniş şərtlərinin asanlaşdırılmasınəzərdə tutulur. Sənəddə beynəlxalq təcrübəyə, o cümlədən Türkiyə və Qazaxıstanın təcrübəsinə uyğun olaraq, dövlət və özəl sektorun tərəfdaşlığı əsasında dövlətin “azxərcli” mənzil tikintisini genişləndirilməsi və sosial ipoteka ilə əlaqələndirilməsi təklif edilir.**

❑ RÖYA

# Neft Fondunun valyuta ehtiyatlarını nə gözləyir?

## Ekspert: “Fond lazım olan zaman nağd vəsaitlərin əldə edilməsində heç də rahat deyil”

**Dövlət Neft Fondunun xaricdə saxlanılan valyuta ehtiyatlarının azaldığı ilə bağlı məlumat yayılıb. Məlumata görə, ölkənin valyuta ehtiyatları ilin əvvəlinə nisbətən 17,9%, son 1 ildə isə 20,2% azalıb. Bu baxımdan diqqətlər yenidən xaricdə saxlanılan rezervlərimizə yönəlib.**

*Bəs onlar nə qədərdir və hazırkı şəraitdə ölkəyə gətirilə bilərmi?*

Məsələ ilə bağlı **iqtisadçı ekspert Rəşad Həsənov** “Yeni Müsavat”a danışıb. O bildirib ki, rəsmi açıqlamaya görə, hazırda Dövlət Neft Fondunun (bundan sonra fond kimi qeyd edəcəyik-red) valyuta ehtiyatları 34 milyard 738,1 milyondur: “Gəlirlərə nisbətən xərclərin daha artıq olması, valyuta ehtiyatlarımızın azalmasına səbəb olub. Fondun 2015-ci ilin dövlət büdcəsi proqnozlaşdırarkən neftin dəyərinin 90 dollardan götürüldü. Lakin növbəti dövrlərdə bu proqnoz öz real əksini tapmadı. Bu kimi halları nəzərə alaraq, dövlət büdcəsinə fonddan transferlərin azaldılması istiqamətində addımlar atıldı. İlk addım təbii ki, devalvasiyanın həyata keçirilməsi idi ki, bunun da nəticəsində fonddan çıxarılan dolların həcmini müəyyən qədər (34 faiz) azaltmaq mümkün oldu. Digər bir tərəfdən isə 2015-ci ildə fonddan 10.3 milyard manata yaxın transfer nəzərdə tutulurdusa, 2016-cı ilin dövlət büdcəsinin müzakirələri zamanı hökumət tərəfindən açıqlanan rəqəmlərdən məlum oldu ki, bu dəfə 8 milyarda qədər azalmalar nəzərdə tutulub. Yəni həm devalvasiyanı həyata keçirməklə dollar çıxışı məhdudlaşdırıldı, həm də öhdəliyin öz ümumi həcmi azaldıldı. Beləliklə də hökumət çalışdı ki, fonddan valyutaların xərclənməsinin qarşısını alsın. Ancaq buna baxmayaraq, xərclənmə baş verdi”.




**Ekspert bildirib ki, fond haqqında əsasnaməyə görə, gəlirin minimum 25 faizi həcmində valyuta ehtiyatı qorunub gələcək nəsillərə saxlanılmalıdır:** “Ancaq hazırkı rəqəmlərin təhlili onu göstərir ki, artıq fonda 125 milyarda yaxın daxilolma olub. Onun isə təxminən 90 milyarda yaxını xərclənib. Bu isə fondun əsasnaməsinin pozulması deməkdir. Düşünürəm ki, hazırkı situasiyada hökumət bu məqama daha çox diqqət edir. Məsələ ondan ibarətdir ki, əslində Azərbaycanın valyuta ehtiyatlarının sürətli azalması ölkənin kredit dərəcələrinin aşağı düşməsinə səbəb olan amildir. Yəni bu növbəti dövrlərdə beynəlxalq maliyyə qurumlarının, o cümlədən digər bu kimi institutların Azərbaycanla bağlı hesabatlarında əks olunacaq. Eyni zamanda, kredit reytinqinin aşağı düşməsinə səbəb ola bilər ki, bu da Azərbaycan üçün müəyyən fəsadlar doğurar. Bu hal həm də xarici investisiya axınının müəyyən qədər azalmasına səbəb ola bilər. Çünki hazırda bizim valyuta ehtiyatlarımız bir çox hallarda Azərbaycanın iri sahibkarlıq və dövlətin əsas iştirakçısı olduğu müəssisələrinin xarici borclanmasının təminatı hesab olunur. Ölkənin ehtiyatlarının azalması isə borclanmanın daha bahalı faizlərlə başa gəlməsinə gətirib çıxarar”.

**R.Həsənov söyləyib ki, nizamnaməyə uyğun olaraq, fondun vəsaitlərinin 50 faizi dollarla, 35 faizi isə avro ilə saxlanılır:** “Yerdə qalan 10 faizi isə daşınmaz əmlak, qızıl formasındadır. Dollarla saxlanılanlar daha çox uzunmüddətli dövr üçün nəzərdə tutulan vəsaitlərdir. Bunun qısa müddət içərisində geri çəkilməsi Azərbaycan üçün itki ilə nəticələnə bilər. Burada söhbət komisyon xərclərdən gedir. Eyni zamanda, hazırkı vəziyyətə görə, fond qızıl ehtiyatlarını da alarkən hər unsiyaya 1451 dollar vəsait xərcləyib. Bu gün isə artıq qızılın qiyməti kifayət qədər aşağı düşüb. Hazırda fond satış edərsə, hər unsiya üçün 300 dollara yaxın ziyan edər. Ümumilikdə qiymətləndirsək, fond lazım olan zaman nağd vəsaitlərin tapılıb ortaya çıxarılması məsələsində heç də rahat deyil. Bu baxımdan hazırda fondun vəsaitlərinin ölkəyə gətirilməsi üçün uyğun zaman sayılmır. Həmçinin, vəsaitlərin gətirilməsi banklar üçün əlavə yük yarada bilər. Ümumiyyətlə, hazırda bankların da heç xarici valyutada vəsaitə ehtiyacı yoxdur”.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015

# Qarabağ İcmasından aktyor-şoumenə sərt reaksiya

**Tanınmış aktyor-şoumen Qorxmaz Əlilinin məcburi köçkünləri təhqir etməsi etirazlara səbəb olub. Məlumata görə, Q.Əlili sosial şəbəkədə Azərbaycanın ən qocaman jurnalistlərindən olan Şirməmməd Hüseynovun televiziyadakı çıxışına münasibət bildirərkən qaçqın və məcburi köçkünlərin heysiyatına toxunan ifadələr işlədib.**

**O, ANS-də yayımlanan "İstiqlal Şirməmməd Hüseynovla" layihəsindən bir hissəni paylaşaraq yazıb:** "Dilinə qurban, de, danış. Qaçqınlara Bakı lazım idi, ona da nail oldular. Hökumət lazım idi, ona da nail oldular. Var-dövlət lazım idi, onu da aldılar. İyirmi faiz əsl qaçqınlıq həyatı sürdülər, o da reklama görə. Xaricdən gələn qonaqlara göstərmək üçün, yardım pulu almaq üçün. Aldılar, pulun dalına keçdilər, indi bizi bəyənmirlər".

**Lakin ardınca tanınmış aktyor şəxsi facebook səhifəsində qaçqınlar haqqında yazdığı statusa görə, üzrxahlıq edib. (ans) O, həftə.az saytına bildirib ki, bəzi mətbu orqanlar onun fikirlərini yozaraq cəmiyyətə səhv təqdim edib:** "Mən qeyd olunan fikri bütün qaçqınlara aid etməmişəm. Sözüm əyri yollarla pul qazananlara olub, yazımı diqqətlə oxusunlar. Sadə qaçqınların vəziyyəti göz qabağındadır. Dövlətimiz onlar üçün evlər tikir, müxtəlif şəraitlər yaradır ki, dərdləri bir az azalsın. Yazdığım statusu pis niyyətli insanlar şişirdərək, nifaq salmaq istəyirlər. Onlara heç kim ixtiyar verməyib ki, mənimlə danışmadan bu haqda yazsınlar. Mövqeyim olmadan istədikləri şəri-böhtanı tirajlayırlar. Bu gün mətbuata gələnlər əllərinə indilərdə qələm, klaviatura dəyənlər bilsin ki, mən hər zaman qaçqınların mövqeyini müdafiə etmişəm. 1991-1993-cü ildə cəbhə bölgəsində konsert verəndə hər zaman qaçqınların tərəfini saxlamışam. 2000-ci ildə meyxana konserti zamanı qaçqınlara qarşı xoş olmayan ifadə işlədən meyxanaçını özüm şəxsən efir vaxtı acılamışam. Mənə qarşı tənqid yazan insanlar görünür sözümə tuş gələn şəxslərdir ki, bu onlara belə təsir edib", - deyə Qormaz Əlili vurğulayıb.

Lakin Q.Əlilinin ilkin fikirləri etirazlara səbəb olub. Hətta məsələyə icma rəhbəri səviyyəsində reaksiya verilib.

**Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri Bayram Səfərov** "Yeni Müsavat"a açıqlamasında qaçqın və məcburi köçkünlərin aşağılanmasına etirazını bildirdi: "Qaçqınlar gələndə əmlakını,

## Bayram Səfərov: "Bu, nə sözdür? Qaçqın-yerli söhbəti eləmək lazım deyil"



torpağını qoyub gəlib. Amma qaçqın-köçkün Bakıya gələndə ağlını, düşüncəsini də gətirib. Mən evimin əşyalarını, pal-paltarımı belə qoyub gəlmişəm. Var-dövlətim orda qalıb. Amma mənim ağlım, beynim, şüurum özümdədir. Bizim camaat zəhmətkeşdir, gəlmişik, ağac əkmişik, yer belləmişik. Pul qazanan oğlan orda da qazanırdı, burda da qazanır". B.Səfərov bölücülük edənləri qınadı: "Bu, nə sözdür? Qaçqın-yerli söhbəti eləmək lazım deyil. Ağlı, dərrakəsi olan adam harda olsa, pul qazanacaq, burda da, Moskvada da".

**Qarabağ Qaziləri Cəmiyyətinin sədri Etimad Əsədov** da Qorxmaz Əlilinin dediklərinə münasibət bildirib: "Ümumiyyətlə, bir çox tanınmışlar, müğənnilər, şoumenlər zaman-zaman bu cür ifadələr işlədiblər. Bu yaxınlarda üzdəniraq xanım müğənni ona "bazarlığı siz, yoxsa həyat yoldaşınız edir" sualına "Yox, özüm edirəm. Yoldaşım bazarlıq edərkən aldığı kartoflar müharibə veteranına oxşayır" cavabını vermişdi. Bununla onlar Azərbaycan incəsənət xadimlərinin istənilən kateqoriyadan - qaçqın, veteran, fəhlə və digərlərinə olan aşağılayıcı münasibətlərini ortaya qoyurlar. Dövlət qurumları bunun qarşısını almalıdır. Belə verilişlər, aparıcılar efirdən uzaqlaşdırılmalıdır. Belələri demək olar Azərbaycanın televiziya kanallarında fəaliyyət göstərirlər. Bu kanal qovur, o birində peyda olurlar. Cürbəcür, adları dəyişik verilişlərlə mənəviyyatsızlığı, vicdansızlığı, əxlaqsızlığı, Azərbaycan vətəndaşına uyğun olmayan şərəfsizliyi ortaya qoyurlar".

**E.Əsədov Modern.az-a deyib ki, bu adamın mənəviyyatı, keçmişi, gələcəyi əlilidir.** "Bundan başqa nə deyə bilərəm? Yazıqlar olsun ki, Azərbaycanda belə ünsürlər, soy-kökü bəlli olmayan, əlil və zəlil olanlar var. Ar olsun, qaçqınları aşağılayanlara!"

**Barəsində səslənən fikirlərlə bağlı Qorxmaz Əlilinin də fikirlərini dərc etməyə hazırıq.**

❑ **Vüqar MURAD**

# "Elsevər Abdullayevin işdən çıxarılmasının səbəbi..."

**Xəbər verdiyimiz kimi, fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin rektoru, hazırda Fransada mühacirətdə olan Elşad Abdullayevin bacısı oğlu Azad Mürsəliyev saxlanılıb.**

## Azad Mürsəliyev sərhəddə saxlanması və dayısının işdən çıxarılması barədə danışdı

Hadisə noyabrın 2-də gecə saatlarında hava limanında baş verib. Azad Mürsəliyev həmin gün Türkiyəyə gedirmiş. Lakin aeroportda sərhəd xidmətinin əməkdaşları onun ölkədən çıxışına imkan verməyiblər.

Məlumata görə, Azad Mürsəliyev həmin gecə səhərə qədər hava limanında saxlanılıb. Sonradan ona bildirilib ki, barəsində ölkəni tərk etməmək barədə qərar var.

**A.Mürsəliyev "Yeni Müsavat"a müsahibəsində bu hadisə barədə geniş danışdı. Müsahibimiz öncə saxlanma hekayəsini danışdı.**

- Bu hadisə seçkidən bir gün əvvəl baş verib. Avtobusla İstanbula gedirdim, məni Qazaxda saxladılar. Bakı Avtovağzalından İstanbula gedən avtobus üçün bilet almışdım.

***- Niyə avtobus reysi seçmişdiz səfər üçün? Bütün hallarda yol uzaq, səfər yorucu ola bilərdi...***

- Sadəcə maddi baxımdan. Çünki avtobusla İstanbula getmək çox ucuz başa gəlir. Biletin qiyməti 63 AZN-dir. Təyyarə ilə getmək bundan neçə dəfə baha başa gəlir.

***- Hadisə necə oldu, harada saxladılar sizi?***

- 2012-ci ildə də məni saxlamışdılar. Ondan sonra dəfələrlə müraciət etmişdim ki, ölkədən çıxmağıma qadağa götürülsün. Mənə cavab verildi ki, sorğunuz alınıb, araşdırılacaq və sair. Son iki müraciətimə - dövlət başçısı və prokurorluğa yolladığım - cavab gəlmədiyi üçün məcburiyyət qarşısında qalıb bilet aldım. Düşündüm ki, yəqin mənə sərhəddə cavab verəcəklər. Orda da mənim baqajım keçdi. Pasportuma baxandan sonra dedilər ki, sizi polisə təhvil verməliyik. Polis əməkdaşları gəldi, məni polisə təhvil verdilər. 2 saat polisdə saxlanıldım. 2 saat sonra baş prokurorla əlaqə saxladılar, burdan cavab gəldi ki, Bakıya gələ bilər.

***- Ondan sonra nə baş verdi?***

- Orda iltizama qol çəkmişdim ki, noyabrın 1-də, yəni seçki günü Baş Prokurorluğa getməliydim. Bu, absurd idi. Çünki bilirdim ki, seçki günü mən orda heç kimlə qarşılaşa bilməyəcəm. Bu gün(noyabrın 2-də) Baş Prokurorluğa getməyə qərar verdim, saat 11-də orda oldum. Prokurorluğun əməkdaşı Mübariz Əhmədov məni qəbul etdi, söhbət etdik. Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun yaydığı məlu-



Azad Mürsəliyev

matın üzərində dayandı. Mən də orada göstərilən iki məqamın üzərində dayandım. Orda göstərilmişdi ki, mənim xüsusi əhəmiyyətli məlumatlara malik olmağım və istintaqla sıx əlaqə saxlamalı olmağıma görə ölkədən çıxa bilmərəm. Amma bunların heç biri mənim ölkədən çıxışımın məhdudlaşdırılmasına səbəb ola bilməz. Çünki qanunda açıq-aydın göstərilir ki, hansı insanlar, hansı şəraitdə saxlanıla bilər, hansı səbəbdən ölkədən çıxışlarına qadağa qoyula bilər. Bununla bağlı 4 punkt var. Amma mənimlə bağlı situasiya həmin 4 punktdan heç birinə aid deyil.

***- Danışıqlarda son nəticə nə oldu? Razılığa gəldizmi, yoxsa ölkədən çıxışınıza yasaq davam edirmi?***

- Əsla razılaşmadan söhbət gedə bilməz. Onlar dediklərinin üzərində dayandılar. Mən də israr etdim ki, konstitusiyanı gətirin, açaq baxaq və orda da görünsün ki, nə zaman vətəndaşın ölkədən çıxışına qadağa qoyula bilər. Onlara dedim kİ, əgər sizin dediklərinizdən biri orda göstərilibsə, mən sizə söz verirəm ki, bir daha bu məsələ ilə bağlı müraciət etməyəcəm, ölkədən də kənara çıxmayacam. Amma bu gün mənim faktiki olaraq anam ürək xəstəsidir. Həkimlər deyirlər ki, onun burda müalicəsi mümkün deyil, imkansızdır, ancaq respublikadan kənara apara bilərsən. Digər bir ağsaqqalımız isə ümumiyyətlə imkansızdır, ay yarım-iki ay vaxt qoyulub, təcili əməliyyata aparılmalıdır. Son olaraq bir ay bundan əvvəl ağır əməliyyatdan keçib. Onların özünü İstanbula aparmaq xərc tələb edirdi. Ona görə də bir neçə gün əvvəl mən onların sənədlərini, analizlərinin nəticəsini aparmaq istəyirdim, amma nəzərə almadılar. Deyirlər ki, ananızı, ağsaqqalınızı başqa bir adama tapşırın, aparsınlar. Mən də bildirdim kİ, sizin idarə rəhbəri, prokuror, məmurlar müalicə üçün xaricə gedirlər, mən niyə gedə bilmirəm? Bunu nəzərə almırlar.

***- Ötən həftə Elşad Abdullayevin qardaşı Elsevər Abdullayevin prokurorluqdakı işindən azad edilməsi, bir neçə gün sonra sizin sərhəddən geri qaytarılmanız... bunlar təsadüf sayıla bilər?***

- Elsevər Abdullayevin prokurorluqdan uzaqlaşdırılması Elşad Abdullayevə təzyiq forması kimi ola bilər. Amma mən onun işdən çıxarılmasını son günlər baş verən həbslərlə əlaqələndirirəm. Elsevər Abdullayev kimi şəxsin həmin məlumatlara kanalının, yolunun olması, mühüm bir postda olmasının vermiş olduğu məlumatlılıq kimlərisə narahat edib, bu baxımdan onu işdən azad ediblər.

***- O informasiyalara hər zaman çatımlı deyildimi? Niyə indi?***

- Mən burada iki məqamı götürürəm. Birincisi, Elşad Abdullayev kimi bir şəxsin qardaşının prokurorluq orqanlarından uzaqlaşdırılması məqsədi vardı. Bilirsiz ki, Mahir Abdullayevin oğurlanması məsələsində MTN zabitlərinin əli var. MTN-də də çoxlu sayda həbslərin həyata keçirilməsi ilə bu işdən çıxarılma arasında əlaqə var. Düşünürəm ki, bu istiqamətdəki hansısa informasiya Elşad Abdullayevə çıxa bilərdi. Narahatçılıq bununla bağlı idi.

***- Amma mediada dolaşan versiyalardan biri də budur ki, Elsevər Abdullayev də, Elşad Abdullayev də MTN-ə yaxınlığı ilə seçilir. Başda nazir olmaq, MTN zabitlərinin bir-bir "vurulması" ilə E.Abdullayevin vəzifədən çıxarılması arasında bir əlaqə quranlar da oldu.***

- Absurddur. Bizim MTN-lə bağlılığımız olsaydı, bu günə qədər başımıza bu qədər iş gəlməzdi.

***- Elsevər Abdullayev özü vəzifədən çıxarılması barədə nə deyir?***

- Görüşməmişəm. Onunla bu barədə danışmamışam. Amma prokurorluğun onun işdən çıxarılması ilə bağlı gətirdiyi əsaslar absurddur. Məsuliyyətsizlik, vəzifə səlahiyyətlərindən sui-istifadə... mümkün deyil. Elsevər Abdullayevin orta məktəbdən baş prokurorluğa kimi çox savadlı, işini bilən insandır. Hətta son 13 ildə baş verən hadisələr onu hansısa bir səhv məqama yönəlməyə də imkan verməzdi. Sadəcə bütün bu deyilənlər onu işdən çıxarmaq üçün bəhanə idi.

***-Ölkədən çıxışınıza qadağanın götürülməsi ilə bağlı yenidən müraciət edəcəksizmi?***

- Kimə müraciət edim? Ailədə hamı bilir ki, bütün bunlar ailəyə qarşı təzyiqdir. Niyə sizi yox, məni saxlayırlar? Ailə üzvlərinə təzyiq edilir ki, Elşad Abdullayevdən imtina etsinlər. Təsəvvür edin ki, mən seçkidə namizədliyimi irəli sürdüm, imza vərəqələri də topladım. Bu, o demək idi ki, mənim kriminalla heç bir əlaqəm yoxdur. Son bir-iki ayda bir neçə hadisə baş verdi ki, onlar özləri mənim təmiz insan olduğumu sübut etdilər.

***- Siz budəfəki parlament seçkilərində namizədliyinizi irəli sürmüşdüz?***

- Bəli. Amma namizədliyim qeydə alınmadı. Mənim sənədlərim keçdi, imza topladım, 550 səs topladım, amma onun 50-si nədənsə "yoxa çıxdı".

❑ **Sevinc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 244 (6272) 3 noyabr 2015





# Rəsmi Bakı Minsk qrupundan imtina barədə düşünmür

**XİN:** "Azərbaycan hələ də inanır ki, münaqişənin siyasi yolla həlli üçün resurslar tükənməyib"

**Ekspertlər:** "Həmsədrlər və böyük dövlətlər cəbhə bölgəsində sakitlik istəyir, bu isə Ermənistanın mövqeyi ilə üst-üstə düşür"

**ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona saysız-hesabsız səfərlərindən biri də geridə qaldı. Ancaq regiondakı gərgin durumdan "narahat" olduqlarını bəyan edən diplomatların budəfəki səfərlərindən sonra da təcavüzkarla təcavüzə məruz qalan tərəf arasında bərabərlik işarəsi qoyması rəsmi Bakının səbrini daşırdı və səfərin yekunları barədə yayılan press-relizə etiraz bəyanatı ilə reaksiya verildi.**

**Qeyd edək ki, Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında qeyd edilir ki, əldə olunmuş ilkin razılığa əsasən, ATƏT-nin Minsk qrupunun həmsədrləri oktyabrın 27-də Ermənistan və Azərbaycan silahlı qüvvələrinin təmas xətti üzərindən Azərbaycanın işğal olunmuş ərazilərindən Azərbaycan ordusunun nəzarət etdiyi ərazilərə keçiblər:** "Məhz bu vaxt ATƏT-in Fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi və onun səhra zabitləri Tərtər və Ağdərə (Azərbaycan Respublikasının Tərtər rayonu) arasındakı yolda atəşkəsin monitorinqi üzrə təlim keçirirdilər. ATƏT heyətinin təhlükəsizliyini təmin etmək üçün tədbirlərin görülməsinə dair əvvəlcədən razılığın əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri tərəfindən nəzarət edilən işğal olunmuş ərazilərdən Azərbaycan Respublikası silahlı qüvvələrinin mövqeləri istiqamətinə təkrar atəşlər açılıb. Bu insident ATƏT-in monitorinq heyətini Azərbaycan Respublikası silahlı qüvvələrinin mühafizəsinə sığınmağa vadar edib. Bu insident zamanı hadisə yerində olmuş Azərbaycan Müdafiə Nazirliyinin nümayəndələrinin ifadələrinə görə ATƏT heyəti atəşi dayandırmaq və atəş açmamaq üçün zəmanətləri yeniləmək məqsədilə qarşı tərəflə əlaqəyə çıxıb. Mənbənin və atəşin açıldığı istiqamətin aydın şəkildə bəlli olmasına baxmayaraq, həmsədrlərin 29 oktyabr 2015-ci il tarixli bəyanatında bu insidentin müvafiq qaydada əks etdirilməməsi və atəşi pozan tərəfin adının qeyd olunmaması təəssüf doğurur. Amma bu, Ermənistan tərəfini törətdiyi bu və digər çoxsaylı təxribatlarına görə məsuliyyətdən azad etmir".

Bəyanatda o da bildirilir ki, 2015-ci ilin sentyabrında Nyu-Yorkda danışıqların növbəti mərhələsindən əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən xüsusilə qoşunların təmas xətti boyunca yaşayan mülki Azərbaycan əhalisini hədəfə almaqla, böyük kalibrli avtomatik silahlar, mina atanlar və artilleriya vasitələrindən istifadə edərək atəşkəsin pozulması dramatik şəkildə intensivləşdirilib. Əgər atəşə məruz qaldıqları halda həmsədrlər yenə də Ermənistanı günahlandırmağa cəsarət etmirsə, o halda onların ədalətli mövqe sərgiləyəcəyinə ümid bağlamaq olmaz. Bu mənada ölkə başçılarının ilin sonunadək görüşdürülməsinə yönəlik cəhdlər də faydasızdır.

Bu arada Moskvadan yenə də Qarabağla bağlı mesajlar gəlməkdədir. Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko İrəvana səfəri ərəfəsində news.am agentliyinə müsahibə verib (Virtualaz.org). Matviyenko münaqişənin nizamlanması perspektivlərindən və Rusiyanın bu prosesdəki rolundan da danışıb. "Qarabağ münaqişəsi postsovet məkanında ən uzun çəkən münaqişədir. O, hələ Sovet İttifaqında başlayıb, az qala 30 ildir davam edir. Mənim fikrimcə, bu gün hamıya aydın olmalıdır ki, bu münaqişə tərəflərə ancaq problem yaradır. Münaqişə iqtisadiyyata, sosial sferaya yükdür, insanların bunun yükünü çəkir. Sıx tarixi bağlarla əlaqəli olan iki ölkə, iki xalq arasında münasibətlərə kölgə salır. O, regionda gərginliyin əsas mənbəyidir, münaqişə iştirakçılarının dünya siyasətindəki iştirakına çətinliklər yaradır. Buna baxmayaraq münaqişənin həlli yollarının axtarılması çox ləng gedir"- deyə Matviyenko bildirib.

**Federasiya Şurasının sədri deyib ki, Rusiyanın bu məsələdə mövqeyi ardıcıldır.** Rusiya münaqişənin müharibənin başlanmasını, qan axıdılmasını, humanitar fəlakət riskini istisna edən siyasi həll yolunda israrlıdır. "Bunu görməmək mümkün deyil ki, həm Azərbaycan və Ermənistan xalqları, həm beynəlxalq ictimaiyyət bu münaqişədən cana doyub. Ona görə də bu gün əsas məsələ bütün səviyyələrdə xeyirxah iradə, müdriklik və məsuliyyət nümayiş etdirməkdir"- deyə Rusiya parlamentinin yuxarı palatasının spikeri vurğulayıb.

Rusiyadan gələn mesajların hansı nəticə verəcəyini demək çətindir. Azərbaycanda keçirilmiş parlament seçkilərindən sonra Qarabağ məsələsində hansı dəyişikliklərin olacağı isə gündəmin suallarından biridir. Adətən seçkilər ərəfəsində gərginliklər yaşanır və elə sentyabr-oktyabr aylarında təmas xəttində baş verənlərin arxasında İrəvanın seçki təxribatı kimi yozulurdu. Ermənistanın konstruktiv mövqe tutmadığı, həmsədrlərin ədalətli mövqe sərgiləmədiyi halda seçkilərdən sonra Qarabağ cəbhəsində nələrin baş verəcəyini ekspertlərlə aydınlaşdırmaq istədik.

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda 1 noyabr parlament seçkisinin nəticələrinin Dağlıq Qarabağda yeni situasiya yaradacağını zənn etmir: "Münaqişənin həlli ilə prezident məşğul olur, nəyin necə olacağına dövlət başçısı qərar verir. Bu illərdə parlamentin Dağlıq Qarabağ ətrafındakı danışıqlara heç bir təsiri olmayıb, qanunverici orqanda mövzu ilə bağlı dinləmələr də həyata keçirilməyib. Ona görə də tərkibi cəmi 20 faiz dəyişən yeni parlamentin də danışıqlara təsir edəcəyini düşünmürəm. O ki qaldı, ATƏT-in Minsk Qrupu həmsədrlərin bölgəyə son səfərinə, onların əsas məqsədi ilin sonuna qədər Ermənistan və Azərbaycan prezidentləri ilə görüşə razı salmaq idi. Həmsədrlər prezidentləri bu görüşün keçirilməsinə inandırmağa çalışıblar. Ancaq belə bir görüşün ilin sonunadək reallaşacağını az ehtimal edirəm. Doğrudur, amerikalı həmsədr


Elxan Şahinoğlu


Üzeyir Cəfərov


Hikmət Hacıyev

Ceyms Uorlik deyib ki, prezidentlər belə bir görüşə razılıq veriblər. Ancaq görüş üçün tərəflərdə müsbət atmosfer yoxdur".

**Politoloq deyir ki, əgər belə bir görüşə ehtiyac var idisə, Azərbaycan prezidenti İlham Əliyev elə sentyabr ayında Nyu-Yorkda BMT sessiyası çərçivəsində erməni həmkarı Serj Sərkisyanla görüşə bilərdi:** "İlham Əliyev həmsədrlərlə görüşdə erməni həmkarı Serj Sərkisyanın ünvana kəskin ifadələr işlədib. Bunun özü İlham Əliyevin Serj Sərkisyanla görüşmək istəmədiyini göstərir. Məsələn, İlham Əliyev deyib ki, Ermənistan rəhbərliyi təxribatlardan əl çəkmir. Azərbaycan prezidenti misal olaraq keçən ilin oktyabrında prezidentlərin Paris danışıqlarından iki həftə keçməmiş Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlərini göstərib. Məhz bu hadisədən sonra cəbhə bölgəsində vəziyyət gərginləşib. Azərbaycan ordusu 2014-cü ilin avqust ayında işğal altındakı Ağdam rayonunun səmasında Ermənistana məxsus helikopteri vurdu. İlham Əliyev Sərkisyanın əmri ilə Ermənistan ordusunun başqa diversiyalarla da məşğul olduğunu həmsədrlərin diqqətinə çatdırıb. Azərbaycan prezidenti həmsədrlərlə görüşdə Sarkisyanı diktator adlandırıb. Əliyev bu fikirini belə əsaslandırıb ki, Sərkisyan yeni siyasi təxribata əl atıb, Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olduğunu bəyan edib. "Bu, dözülməz, hətta Ermənistanın rəsmi mövqeyinə belə zidd olan bəyanata da, əfsuslar olsun ki, vasitəçilər tərəfindən heç bir cavab verilməyib" deyib. Göründüyü kimi, ritorika sərtləşib".

**E.Şahinoğlu hesab edir ki, bütün bunlardan sonra ilin sonuna qədər Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün reallaşacağı suallar doğurur:** "Bu, o deməkdir ki, cəbhə bölgəsindəki gərginlik yenidən şiddətlənə bilər. Doğrudur, son zamanlar ağır artilleriya işləmir, tərəflər yenidən "snayper müharibəsi"nə qayıdıblar. Ancaq ilin sonuna qədər prezidentlərin görüşməsi yerinə ağır artileriyanın yenidən işə düşəcəyi istisna deyil. Bu da hər iki tərəfdən itkilər demək olacaq. Azərbaycanın işğalçıya güc nümayiş etdirməkdən başqa alternativ qalmayıb. Həmsədrlər və böyük dövlətlər cəbhə bölgəsində sakitlik istəyir, bu isə Ermənistanın mövqeyi ilə üst-üstə düşür. Çünki Ermənistan Dağlıq Qarabağda status-kvonun davamını istəyir. Bu isə bizim maraqlara cavab vermir. İşğalçı daima Azərbaycan ordusunun təzyiqini hiss etməlidir. Buna baxmayaraq, qarşı tərəfin təxribatlarına da hazır olmalıyıq. Məsələn, dekabrın 1-də Ermənistan müxalifəti prezident Sərkisyan əleyhinə geniş istefa yürüşü və davamlı mitinqlər planlaşdırıb. Onsuz da ölkəni ağır iqtisadi və sosial uçuruma yuvarlandıran Sərkisyanın vəziyyəti daha da qəlizləşəcək. Sərkisyan bundan çıxış yolu kimi cəbhə bölgəsində təxribat yarada bilər ki, cəmiyyətin diqqətini yayındırsın. Belə olan halda Azərbaycan ordusunun mümkün təxribata cavabı elə olmalıdır ki, Sərkisyan nəinki məqsədinə nail olsun, əksinə, üzləşdiyi itkiləri onun müxalifət qarşısındakı mövqelərini bir az daha zəiflətsin".

**Hərbi ekspert Üzeyir Cəfərov** da inanmır ki, Azərbaycandakı parlament seçkilərindən sonra Qarabağla bağlı hansısa yeni situasiya yarana bilər: "Nəzəri baxımdan hər şey ola bilər. Amma mən o qədər də optimist deyiləm. Ona qalsa, bu illər ərzində 4 belə siyasi tədbir, bir neçə digər irili-xırdalı seçkilər keçirilib. Əlbəttə ki, əgər bu təkcə Azərbaycandan birbaşa asılı məsələ olsaydı, biz bəlkə də çoxdan qərarımızı qəbul etmişdik. Lakin dünyada birgə yaşam qaydaları, əlalxüsus da maraqlar deyilən bir şey var, ona görə də inanmağım gəlmir ki, böyük güclər Qarabağla bağlı hansısa addımlar atsınlar".

Ü.Cəfərov Rusiyadan verilən mesajların da fayda verəcəyini güman etmir: "Əslinə qalsa, mən Rusiyanın da səmimiliyinə, münaqişənin ölkəmizin ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll olunmasında maraqlı olmasına əsla inanmıram. Zaman-zaman onlar öz maraqları naminə bəzi ümidverici sözlər, ümidverici hansısa addımlar atmağa həvəsli kimi görünüblər. Amma unutmaq lazım deyil ki, məsələnin həlli Rusiya siyasi-hərbi rəhbərliyinin o qədər də maraqlarına uyğun deyil. Baxmayaraq ki, onlar dildə bir söz, əməldə isə Ermənistanı cani-dildən davamlı şəkildə müdafiə etdiklərini davam etdirilər".

**Hərbi ekspert prezidentlərin görüşündən nəticə gözləmədiyini deməklə yanaşı, qeyd etdi ki, ölkə başçısının Sarkisyanı "diktator" adlandırması da təəccüblü görünməməlidir:** "Artıq ermənilərin özləri onu belə adlandırlar. Bu cinayətkar yəqin ki, gec-tez layiq olduğu cəzanı almalıdır və alacaqdır. Məhz onun hikkəsi və "fəaliyyəti" nəticəsində milyonlarla insan iztirab və əzab içində yaşamağa məhkumdurlar. Onun əli həm də Azərbaycan vətəndaşlarının qanına batıb. Hərb gözləntilərinin olub-olmamasına gəlincə isə, onu deyə bilərəm ki, nə qədər ki, bu münaqişə öz həllini tapmayıb, heç nəyi istisna etmək olmaz. Məhz buna görə də beynəlxalq güclər nə qədər tez işğalçını haqq yoluna qaytara bilsə, bir o qədər yaxşı olar. Həm insan itkisinin qarşısı alınar, həm də dağıntı, fəlakətin qarşısı alına bilər".

**XİN-in mətbuat katibi Hikmət Hacıyevin** sözlərindən belə aydın oldu ki, Minsk qrupuna etimadsız şəraitində belə, bu formatdan imtinanın gündəmə gəldiyini düşünməyə hələ ki zərurət yoxdur: "Azərbaycan münaqişənin dinc yolla həlli üzrə ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan prosesdə iştirakını davam etdirir və hələ də inanır ki, münaqişənin siyasi yolla həlli üçün resurslar tam şəkildə tükənməyib. Sadəcə olaraq, Minsk Qrupu tərəfindən qətiyyətli mövqenin nümayiş olunmasına və mövcud real imkanların münaqişənin siyasi yolla həllinə yönəldilməsinə ciddi ehtiyac var. Daha konkret desək, Minsk Qrupu həmsədrlərindən gözləntimiz odur ki, işğalçı tərəf olan Ermənistana münasibətdə təsirli və hətta sülhə məcburedici addımlar atılmalıdır".

**H.Hacıyev həmsədrlərlə görüşdə Kəlbəcər girovlarının azad olunması tələbinin də qoyulduğunu vurğuladı:** "Soydaşlarımızın azad olunması məsələsi həmişə gündəlikdədir. Bu görüşlərdə bir daha məsələ qaldırıldı. Qarşı tərəf qarşısında da məsələ qaldırılır. Eyni zamanda Azərbaycan bu məsələni Beynəlxalq Qızıl Komitəsi ilə də vaxtaşırı müzakirə edir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

# Sənədsiz sürücüləri xəttə buraxan sahibkarları 8 ilədək həbs gözləyir

**Azərbaycan prezidenti İlham Əliyev "Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2015-ci il 20 oktyabr tarixli qanunun tətbiqi barədə sərəncam imzalayıb.**



APA-nın məlumatına görə, Nazirlər Kabinetinə qanunların və prezidentin aktlarının "Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini 3 ay müddətində hazırlamaq, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını 3 ay müddətində təmin etmək, habelə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə 5 ay müddətində prezidentə məlumat vermək tapşırılıb.

Ədliyyə Nazirliyi isə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanuna uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməlidir.

Qeyd edək ki, Cinayət Məcəlləsinə aşağıdakı məzmunda 265-1-ci maddə əlavə olunub:

**1.1.** Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsin belə nəqliyyat vasitəsinin idarə edilməsinə buraxılması, yaxud ümumi istifadədə olan nəqliyyat vasitələrinin sürücülərinin reysqabağı tibbi müayinəsinin təşkil edilməməsi, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda -

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**1.2.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda -üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**1.3.** Bu Məcəllənin 265-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda - üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

**Qanun 2015-ci il dekabrın 1-dən qüvvəyə minir.**

# Əxlaqsızlıq yuvasını şantaj edən reketlər mühakimə olunur

**Bakı Ağır Cinayətlər Məhkəməsində şantajla məşğul olan "jurnalistlər" Şahin Orucov və Cəlil Səmədovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Lent.az-ın məlumatına görə, hakim Azad Mecidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Bu zaman məlum olub ki, Şahin Orucov "Kriminal və Bəşəriyyət" qəzetinin təsisçisi, Cəlil Səmədov isə "Korrupsiya və Qanun" qəzetinin baş redaktorunun müavinidir. Eləcə də, Şahin Orucov əvvəllər xuliqanlıq maddəsi ilə məhbusluq həyatı yaşayıb.**

Təqsirləndirilən şəxslərin hər iki məhkəmə zamanı şərti azadlıqdadır.

Qeyd edək ki, Şahin Orucov və Cəlil Səmədov Sumqayıt şəhəri ərazində yerləşən "Metalurq"adlı kafedə əxlaqsız yuva təşkil olunduğunu öyrəniblər. Onlar həmin kafeyə gedərək, video görüntülər çəkiblər. Özlərini jurnalist kimi təqdim edərək, çəkilişləri yaymamaq qarşılığında 5 min manat pul tələb ediblər.

Hər iki şəxs Cinayət Məcəlləsinin 182 (Hədə-qorxu ilə tələb etmə, yəni zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə) maddəsi ilə ittiham olunurlar.

# Sevgilisini dəniz kənarına apararaq zorladı



**Bakıda 23 yaşlı qız dəniz kənarında zorlanıb. Musavat.com-un əldə etdiyi məlumata görə, qız sevgilisi tərəfindən zorlanıb. Hadisə Xəzər rayonu ərazisində baş verib. Buzovna qəsəbəsində dəniz kənarında görüşən sevgililərin görüşünün sonu cinayətlə nəticələnib.**

Qəsəbə sakini 1984-cü il təvəllüdlü Əli Hüseynov (ad şərtidir) Bakı sakini 1992-ci il təvəllüdlü Cəmilə Əliyevanı (ad şərtidir) zorlayıb. Xəzər Rayon Polis İdarəsinə müraciət edən qız bildirib ki, sevgilisi onun iradəsinə zidd olaraq döyərək onunla qeyri-təbii yolla cinsi əlaqədə olub.

Araşdırma aparılır.

# Qorxulu vərəm statistikası açıqlandı

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, dünyada il ərzində 9 milyondan artıq insan vərəm xəstəliyinə yoluxur. 1 milyon 800 min insan isə vərəm xəstəliyindən ölür.**

Azərbaycan Səhiyyə Nazirliyi də vərəm xəstələri ilə bağlı hesabat açıqlayıb.

**Nazirlikdən virtualaz.org saytına verilən məlumatda deyilir ki, Azərbaycanda vərəmli xəstələrin sayı azalıb:** "Vərəm problemi dünya səhiyyə sisteminin qlobal problemi olaraq cəmiyyətin sağlam inkişafına təhlükə yaradır. Müalicə olunmayan bir yoluxucu vərəm xəstəsi 1 ildə 10-15 yeni xəstə yaradır. Xəstəliyin vaxtında düzgün müalicə olunmaması əlillik və ölümlə nəticələnir.

Hazırda Səhiyyə Nazirliyinin rəhbərliyi altında Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun nəzdində Milli Vərəm Proqramı Mərkəzi fəaliyyət göstərir. Mərkəz Beynəlxalq Qırmızı Xaç Komitəsi, ÜST, "Abt Associaties", USAID kimi təşkilatlarla əməkdaşlıq çərçivəsində çalışır. Vərəmin müalicəsi Milli Strategiya Planına uyğun təşkil edilir".

Nazirlikdən qeyd ediblər ki, vərəmli xəstələrin müalicəsi 68 ixtisaslaşdırılmış müəssisə tərəfindən həyata keçirilir. Hazırda 1 institut, 7 dispanser, 18 xəstəxana, 11 vərəm əleyhinə kabinet fəaliyyət göstərir.

Qeyd edək ki, vərəm əsasən hava-damcı yolu ilə ötürülən infeksion xəstəlikdir. Xəstəliyin vaxtında düzgün müalicə olunmaması əlillik və ölümlə nəticələnir.

Xatırladaq ki, 1993-cü ildə ÜST vərəm xəstəliyinin yayılmasının qarşısının alınması və epidemioloji vəziyyətin nəzarət altında saxlanılması məqsədilə dünyada gərgin epidemioloji vəziyyət elan etmiş, bu xəstəliyə qarşı bütün ölkələrə birgə mübarizə aparmağı tövsiyə olunmuşdur.

2005-ci ildə ÜST bu xəstəliyin dünyada sürətlə artmasını nəzərə alaraq "fövqəladə vəziyyət" elan etmişdir.

**ÜST dünya ictimaiyyəti qarşısında 2050-ci ilədək vərəmin yayılmasını qeyri əhəmiyyətli səviyyəyə çatdırılması vəzifəsini qoyur. Lakin buna nail olmaq üçün həm səhiyyə sistemləri, həm də bütün dünya ölkələrinin hökumətləri tərəfindən ciddi səylər tələb olunur.**

# Qonaq rəfiqəsinin evindən oğurluq etdi

**Bakıda qadın qonaq getdiyi rəfiqəsinin evindən oğurluq edib. Musavat.com-un əldə etdiyi məlumata görə, hadisə Binəqədi rayonunda baş verib. 20 yaşlı Nuranə Qoradayeva polisə müraciət edərək evindən oğurluq edildiyini bildirib. N.Qoradayeva polisə bildirib ki, oğurluğu evinə qonaq gələn rəfiqəsi 1991-ci il təvəllüdlü Ülviyyə Salmanova edib. O, 500 manat pulunun və qızıl boyunbağısını oğurlandığını bildirib.**

❑ **İlkin MURADOV**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



## Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

## Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**